


# Bütün brendlər üzrə, sizi qorumaq üçün vahid siyasət.

## Paylaşdığınız məlumat.

Biz Sizin bizimlə rəqəmsal və ya oflayn brend təcrübələri vasitəsilə pa
informasiyanıməlumatı, habelə məlumatı bizimlə paylaşan digər ş
təqdim etdiyiniz informasiyanı verilənləri toplayırıq. Siz istənilər
məlumatınıza nəzarət edə bilərsiniz.

# MƏXFİLİK SİYASƏTİ

**28 Avqust, 2025-ci ildə yenilənmişdir**

Məxfilik Siyasətinin nüsxəsini endirin (PDF)

## Tez-tez verilən suallar

–

Tətbiq olunan qanunlarda müəyyən olundu kimi şəxsi məlumatınızın tərəfimizdən necə toplanılması, saxlanılması və istifadəsi ilə bağlı tez-tez verilən suallar.

Biz sizin şəxsi məlumatınızı pul təzminatı üçün satırıqmı?

Xeyr

Biz şəxsi məlumatınızı üçüncü tərəf tərəfdaşları ilə paylaşırıqmı?

Bəli, bunu etmək üçün əlimizdə hüquqi əsas olduqda.

Sizin paylaşmaq icazəsini verdiyiniz digər şirkətlərdən şəxsi məlumatı alırıqmı?

Bəli

Şəxsi məlumatdan daha yaxşı məhsul tövsiyələri və səhifə təcrübəsi üçün istifadə edirikmi?
Bəli, bunu etmək üçün əlimizdə hüquqi əsas olduqda.

Biz sizə şəxsi məlumatınız üzərində nəzarəti veririkmi?
Bəli

## Şəxsi Məlumatınıza tərəfinizdən necə nəzarət olunur

–

**Siz şəxsi məlumatlarınıza nəzarət edirsiz. Siz istənilən vaxt öz hüquqlarınızdan istifadə edə bilər və istəklərinizi dəyişə bilərsiniz.**

### Məlumat subyektlərinin hüquqları üzrə müraciətlər

Yerinizdən asılı olaraq (yaşadığınız yurisdiksiya) sizin fərqli məlumat subyekti hüquqlarınız ola bilər. Bura məlumata çıxış əldə etmək, onu silmək, ona düzəliş etmək üçün müraciətlər, marketinqlə əlaqəli elektron məktub və ya mətnləri almaqdan imtina etmək, reklam məqsədləri üçün tərəfimizdən elektron poçt ünvanınızın və ya telefon nömrənizin istifadəsinə etirazı bildirmək daxil ola bilər. Yurisdiksiyanız üçün Məlumat subyekti Hüquqları üzrə müraciətləri təqdim etmək üçün, bura klikləyin.

Siz, həmçinin, bu məktubda göndərdiyimiz abunəlikdən imtina təlimatlarına əməl edərək daha sizə e-poçt və ya mətn mesajları göndərməməyimizi istəyə bilərsiniz. Xahiş olunur nəzərə alasınız ki, bizə sizin seçimlərinizə (məsələn, əgər siz bizə marketinq elektron məktublarını göndərməyi dayandırmağı deyirsinizsə bizə sizin elektron poçt ünvanınızı qeydiyyata almaq lazım olacaq ki, sistemlərimiz həmin elektron poçt ünvanında marketinq məktublarını artıq almamaq istəyinizi yadda saxlasın) hörmət etmək üçün müəyyən informasiyanı saxlamaq tələb oluna bilər.

Həmçinin, bəzi hallarda biz sizin müraciətinizi yerinə yetirmək imkanında olmaya bilərik (məsələn, məlumatın saxlanılması barədə hüquqi öhdəlik daşıdığımız tranzaksiya məlumatının silinməsi, və ya fırıldaqçılığın qarşısının alınması, təhlükəsizlik və ya başqalarının məxfiliyini qorunması üçün və ya digər məsələlər sırasında hüquqi iddiaların irəli sürülməsi, tətbiqi və ya müdafiəsi üçün).

### Ənənəvi onlayn davranış reklamı

#### Maraq-əsaslı reklamlarla bağlı seçiminizi necə tətbiq etmək lazımdır

**Reklam sənayesi məlumatlarini almaqdan imtin**

ABŞ üçün maraq əsaslı reklama münasibətdə seçimi tətbiq etmək üçün siz Rəqəmsal reklam ittifaqi (“RRİ”) tərəfindən təmin olunmuş reklamlardan imtina mexanizmindən bura (brauzerlər üçün) və ya bura (tətbiq əsaslı imtina üçün) klikləməklə istifadə edə bilərsiniz.

İnternet şəbəkəsində reklam təşəbbüsü (“İŞRT”) İŞRT üzvlərinin reklam şəbəkələri tərəfindən təmin edilən müəyyən maraq əsaslı reklamları almaqdan imtina etmək üçün istehlakçılar üçün alət hazırlayıb. Bu cür hədəf reklamlarından imtina etmək və ya İŞRT alətindən istifadə haqqında daha ətraflı məlumat almaq üçün http://www.networkadvertising.org/choices/ səhifəsinə baş çəkin.

Avropa üçün PRİ-Avropanın reklamdan imtina proqramı haqqında ətraflı məlumat əldə etmək üçün bura klikləyə bilərsiniz.

Kanada üçün PRİ-nı Kanadanın reklamdan imtina proqramı haqqında ətraflı məlumat əldə etmək üçün bura klikləyə bilərsiniz.

Dünya miqyasında Vahid ID 2.0 imtina etmək üçün bura klikləyin.

Onlayn platformadan imtina

P&G sizə maraq əsaslı reklam göndərmək məqsədilə e-poçt ünvanınızın heşlənmiş versiyası kimi sizə bağlı identifikatorları aşağıda sadalananlar da daxil olmaqla, lakin onlarla məhdudlaşmayaraq, onlayn platformalarla paylaşa bilər. Bu platformaların məlumatlarınızdan necə istifadə edə biləcəyi və bu məlumatların istifadəsinə necə nəzarət edə biləcəyiniz haqqında daha çox öyrənmək üçün aşağıdakı linkləri izləyin.

- Google
- Meta
- Microsoft / Bing
- Pinterest
- Reddit
- Snap
- TikTok

Xahiş edirik nəzərə alın ki, hətta müəyyən maraq əsaslı reklamları almaqdan imtina etsəniz belə siz hələ də reklamları almağa davam edə bilərsiniz. Bunda əlavə, İŞRT və ya RRİ üzvlərinin biri və ya bir neçəsindən reklamları almaqdan imtina etmək yalnız o deməkdir ki, bu seçilmiş üzvlər İŞRT / RRİ qaydalarına əsasən müəyyən hədəf reklamlarını artıq sizə təqdim etməməlidirlər. Bu aidiyyati RRİ / İŞRT üzvləri tərəfindən təmin edilən xidmətlərə təsir edəcək, lakin bu sizin iştirakçı olmayan tərəflərdən artıq heç bir hədəflənmiş məzmun və və ya reklam almayacağınız anlamına gəlməməlidir. Həmçinin, reklamlardan imtina səhifəsini ziyarət etdikdə brauzeriniz kuki fayllarını imtina etmək üçün konfiqurasiya olunubsa və ya siz sonra kuki fayllarınızı slinibsinizsə başqa cihaz və ya veb brauzer(lər)dən istifadə edin və ya qeyri-brauzer əsaslı çıxış üsulundan istifadə edin. Sizin İŞRT /RRİ brauzer-əsaslı reklamlardan imtina seçiminiz artıq etibarlı olmaya bilər. Mobil cihazda reklamlardan imtina hətta eyni cihazda belə brauzer əsaslı maraq əsaslı reklamlara təsir etməyəcək və siz hər bir cihaz üçün reklamlardan ayrıca imtina etməlisiniz. Biz istənilən üçüncü tərəflərin reklamdan imtina seçimləri və ya proqramlarının etibarlılığı və ya onların tələblərinə uyğunluğuna və ya proqramları barədə etdikləri bəyanatların dəqiqliyinə görə məsuliyyət daşımırıq.

Siz eyni zamanda baruzerinizdə (brauzerlərinizə) kukilərdən imtina etməklə, və ya mobil cihazlarda proqramların çox vaxt quraşdırma zamanı göstərdiyi “məlumata çıxışı” rədd

etməklə və ya cihazın reklam izləmə parametrlərini tənzimləməklə maraq əsaslı reklamların alınmasının qarşısını ala və ya azalda bilərsiniz.

Xahiş olunur nəzərə alasız ki, siz bizə marketinq məqsədləri üçün elektron poçt ünvanınızı və ya telefon nömrənizi təqdim etdiyiniz təqdirdə elektron poçt ünvanınız və ya telefon nömrəniz əsasında şəxsiləşdirilmiş reklamlar da ala bilərsiniz. Bundan imtina etmək üçün xahiş edirik burada *bizimlə əlaqə saxlayın (Qeyd: Sol yuxarı küncdəki düyməyə klikləməklə yaşadığınız düzgün yeri/ölkəni seçdiyinizə əmin olun).*

Siz maraq əsaslı reklamları almaqdan imtina etsəniz belə "kontekst" əsaslı reklamları görəcəksiniz.Sizə maraqlara uyğun reklamları göndərməyi dayandırsaq da belə, siz kompüter və ya mobil cihazlarınıza brendlərimizdən reklamlar alacaqsınız. Lakin bu reklamlar daxil olduğunuz saytların məzmununa uyğun olacaq və məzmun reklamları adlandırılacaq. Vaxt diapazonu və aidiyyati olmayan xidmətlərə çıxış etdikdə mobil telefon və ya kompüterdən daxil olduğunuz səhifələrə əsaslanan maraqlara uyğun reklamlardan fərqli olaraq məzmuna uyğun reklamlar daxil olduğunuz xüsusi saytın məzmununa uyğun olaraq sizə göstərilən reklamlardır. Məsələn, siz onlayn şəkildə uşaqlar üçün məhsullara baxan zaman hələ də uşaqlarla bağlı brendlərin biri barədə reklam ala bilərsiniz, çünki bu saytlara adətən yeni və ya hamilə valideynlər daxil olur. Bundan əlavə bilməlisiniz ki, biz yenə də kompüter və ya cihazlarınızdan məlumat toplamağa davam edə və ondan vebsaytlarımızın işinin qiymətləndirilməsi, istehlakçı tədqiqatı və ya qüvvədə olan qanunvericiliyə uyğun olaraq saxtakarlıq hallarının aşkarlanması kimi digər məqsədlər üçün istifadə edə bilərik.

### Kukiləri necə idarə edə bilərsiniz

Siz brauzerinizi elə qura bilərsiniz ki, kompüterinizə kuki göndərildikdə onu göstərsin və ya bütün kukiləri rədd etsin. Lakin, bu, bizim sayt və ya xidmətlərimizin düzgün işləməsinin qarşısını ala bilər. Eyni zamanda brauzerinizi elə qura bilərsiniz ki, hər dəfə brauzeri bağladıqda kukiləriniz silinsin.

Maraqlara uyğun reklamlardan imtina etdiyinizdə, artıq maraqlara uyğun reklamlar almaq istəmədiyinizi göstərən imtina kukisi brauzerinizə göndərilir. Brauzerinizdə bütün kukiləri silməyə qərar verdiyinizdə sizin reklamlardan imtina kukiniz də silinəcəkdir. Bu isə o deməkdir ki, hələ də maraqlara uyğun reklamları almaq istəmədiyiniz təqdirdə siz kuki fayllarını sildiyiniz hər bir brauzerdə yenə də reklamlardan imtina etməlisiniz.

Bəzi bazarlarda və bəzi vebsaytlarda biz kuki fayllarının müəyyən kateqoriyalarına münasibətdə sizə seçim hüququ imkanını verən kuki fayllarına razılığın idarə edilməsi platformasını təklif edirik. Belə bir platforma mövcud olquda bu kuki banneri və/və ya müvafiq vebsaytlarda görünən piktoqram kimi peyda ola bilər. Biz həmçinin mobil tətbiqlərdə də oxşar texnologiyanı təmin edə bilərik və mövcud olduğu təqdirdə ona müvafiq tətbiq parametrləri meynusu vasitəsilə çıxış əldə etmək olar.

## ABŞ Ştatının Məxfilik Qanunları

Müəyyən ştatların məxfilik qanunları ilə tələb olunan məlumat və bu qanunlara görə məxfilik hüquqları ilə bağlı məlumat üçün aşağıda "ABŞ Ştatının Məxfilik Bildirişi"-nə baxın.

## AİM, İsveçrə, BK və Serbiya sakinləri üçün əlavə məlumat

Əgər siz AİM, İsveçrə, BK və ya Serbiyada yaşayırsınızsa və ya fiziki olaraq AİM, İsveçrə, Serbiya və ya BK-da olduqda haqqınızda saxladığımız şəxsi məlumatlara çıxış əldə edə, qeyri-dəqiq, köhnəlmiş və ya artıq zəruri olmayan məlumatlara düzəliş olunmasını, silinməsini və ya məhdudlaşdırılmasını xahiş edə və bizdən məlumatlarınızın sizə başqa xidmət təchizatçısına ötürməyə imkan verən formatda təqdim olunmasını xahiş edə bilərsiniz. Siz, həmçinin, bizim haqqınızda olan şəxsi məlumatların emal edilməsinə razılığınıza arxayın olduğumuz hallarda istənilən vaxt razılığınızı geri götürə bilərsiniz. Məlumatlarınızın emalı bizim legitim maraqlara (bu o deməkdir ki, bizim bu məlumatlardan müəyyən məqsəd üçün istifadə etmək üçün legitim səbəbimiz var və bu səbəb sizin P&G-dən ondan istifadə etməməsi marağınızı üstələmir ) əsaslandığı hallarda siz şəxsi məlumatlarınızın tərəfimizdən emal edilməsinə etiraz edə bilərsiniz ( bizdən onun istifadəsini dayandırmağı xahiş edirsiniz). Sorğunu göndərmək üçün bizimlə əlaqə saxlayın.

Əgər siz məlumatların mühafizəsi və ümumiyyətlə şəxsi məlumat hüquqlarınız haqqında daha ətraflı öyrənmək istəyrsinizsə xahiş edirik,https://edps.europa.eu/data-protection/ ünvanında yerləşən Avropada Məlumatların Mühafizəsi üzrə Müfəttişliyin və ya.https://ico.org.uk ünvanında yerləşən Birləşmiş Krallığın İnformasiya üzrə Komissarının Ofisinin və ya və ya https://www.edoeb.admin.ch/edoeb/en/home.html ünvanında yerləşən İsveçrə Federal Məlumatların Qorunması və İnformasiya Komissarlığının saytına və ya https://www.poverenik.rs/en/home.html ünvanında yerləşən Serbiya Komissarının (ictimai əhəmiyyət kəsb edən məlumatlar və şəxsi məlumatların qorunması üçün) saytına ziyarət edin. Suallarınıza olan cavablarımız sizi qane etmirsə, ölkənizdəki məlumatların mühafizəsi üzrə səlahiyyətli orqana şikayət edə bilərsiniz.

Procter and Gamble España SA İspaniyanın Məlumatların Mühafizəsi üzrə Agentliyi tərəfindən akkreditasiya olunmuş Avtomatlaşdırılmış Nəzarətdə Məlumatların Mühafizəsi üzrə Davranış Kodeksinə riayət edir və buna görə də məlumatların mühafizəsi və reklamına aid olduqda məlumatların emalı üzrə şikayətlərin məhkəmədən kənar sistemi ilə tənzimlənir. Maraqlananlar www.autocontrol.es vebsaytında tanış ola bilərlər.

## Diş həkimləri

Əgər diş həkimisinizsə və bizim peşəkar əlçatanlıq proqramlarımız çərçivəsində, o, cümlədən https://www.dentalcare.com vasitəsilə bizə şəxsi məlumatınızı təqdim etmisinizsə, xahiş edirik, yerli P&G nümayəndəniz, məsələn Oral-B vasitəsilə bizimlə əlaqə saxlayın.

## Tibb İşçiləri

Əgər siz tibbi işçisinizsə və bizim peşəkar əlçatanlıq proqramlarımız və ya həra hansı digər əməkdaşlıq forması çərçivəsində şəxsi məlumatınızı bizə təqdim etmisinizsə, xahiş edirik yerli və ya regional P&G nümayəndəniz vasitəsilə bizimlə əlaqə saxlayın.

## İstehlakçılar arasında aparılmış tədqiqatın iştirakçıları

Tədqiqat təlimlərimizin birində iştirakınızın bir hissəsi ola bilən şəxsi məlumatla bağlı sorğu vermək üçün razılıq formanızda göstərilmiş əlaqə məlumatı və ya zəng ilə, eləcə də tədqiqat mərkəzimizə daxil olaraq bizimlə əlaqə saxlayın.

## Şəxsi Məlumatınız tərəfimizdən necə toplanılır və istifadə olunur

–

**Bütün brendlər kimi siz bizimlə əlaqədə olduqda və ya üçüncü tərəflərlə sonradan bizimlə paylaşıla biləcək şəxsi məlumatı paylaşdıqda biz şəxsi məlumatınızı toplayırıq. Biz hüquqlarınızı qorumaq üçün bunu ləyaqətli şəkildə və ehtiyatla edirik. Şəxsi məlumatlar bizə sizin bir istehlakçı və fiziki şəxs olaraq maraq və istəklərinizi daha yaxşı başa düşməyimizə kömək edə bilər.**

### Şəxsi məlumatları necə toplayırıq

Biz haqqınızdakı şəxsi məlumatları bir çox yollarla və bir çox mənbələrdən toplayırıq. Topladığımız bəzi şəxsi məlumatlara sizin kimliyinizi müəyyən etmək üçün istifadə oluna bilən şəxsi məlumatlar daxil ola bilər; məsələn, adınız, elektron poçt ünvanınız, telefon nömrəniz və ya poçt ünvanınız. Bəzi yurisdiksiyalarda IP ünvan və ya kuki faylı və mobil cihaz eyniləşdiriciləri də şəxsi məlumat hesab edilə bilər. Topladığımız şəxsi məlumatların bəziləri həssas şəxsi məlumatlar və ya xüsusi kateqoriyalı məlumatlar hesab edilə və aşağıdakıları ehtiva edə bilər: hesaba giriş məlumatları, maliyyə məlumatları, dəqiq geolokasiya məlumatları, hökumət identifikatorları, irqi və ya etnik mənşə, psixi və fiziki sağlamlıq / vəziyyət, İstehlakçının Sağlamlığı haqqında Məlumatlar, cinsi həyat və ya cinsi oriyentasiya, transgender / qeyri-binar status, uşaq məlumatları, məhkumluq, cinayət təqibi faktları, şəxsin unikal şəkildə müəyyən edilməsi məqsədilə genetik məlumatlar və biometrik məlumatlar və s.

### Siz məlumatı birbaşa paylaşırsınız

Siz, məsələn, vebsaytlarımız və ya mobil proqramlarımızda hesab açdığınızda, eləcə də bizə zəng etdiyinizdə və ya elektron məktub yazdığınızda və ya P&G sorğusunda və ya müsabiqəsində iştirak edərkən və s. hallarda bu şəxsi məlumatları bizə birbaşa təqdim edirsiniz. Biz sizdən adınız, e-poçt və ya ev ünvanınız, doğum tarixiniz, ödəniş məlumatı, yaşınız, cinsiniz, ailə üzvlərinizin sayı və məhsul və xidmətlərimiz barədə sizə hansı yolla (ev ünvanınız, e-poçt ünvanınız və ya mesaj) məlumat göndərə biləcəyimiz kimi suallar verə bilərik.

### Siz vebsayt və elektron məktublarla əlaqədə olursuz

Biz saytlarımıza daxil olduğunuzda, reklamlarımıza baxdığınızda və ya məhsul və xidmətlərimizdən istifadə etdiyinizdə məlumatları avtomatik toplayan texnologiyalardan istifadə edə bilərik. Məsələn, biz istifadə etdiyiniz brauzer və əməliyyat sistemi, IP ünvanınız, və daxil olduğunuz veb səhifələr, açdığınız keçidlər və ya e-poçtlarımızı açıb-açmadığınız kimi onlayn fəaliyyətiniz barədə məlumat almaq üçün kuki fayllardan (kompüterin brauzerində saxlanan kiçik fayllar) istifadə edirik.

### Sizin mobil tətbiqlərdən və digər cihazlardan istifadəniz

Sizə mümkün olan ən yaxşı istifadəçi təcrübəsini təmin etmək üçün biz mobil proqramlarımızdan istifadə etdiyinizdə telefonunuzdan və ya evinizdə ağıllı cihazlardan məlumat toplayan texnologiyalardan istifadə edə bilərik. Proqramı endirən və ya ev internetinə qoşulmuş cihazları quraşdıran zaman razılığınızı bildirirsiniz. Bu məlumata mobil telefon nömrəniz və ya başqa cihazın reklam ID-si, telefonun əməliyyat sistemi barədə məlumat, proqram və ya cihazdan istifadəniz, fiziki yeriniz və bəzi yürisdiksiyalrda şəxsi məlumat hesab olunan digər məlumat daxil ola bilər. Siz dəqiqi geo-lokasiyanızı öyrənməyimiz üçün (dəqiq dayandığınız yer və ya internetə çıxış əldə etdiyiniz yer və ya müvafiq qanunvericilik tərəfindən tələb olunan digər şəxsi məlumatları toplamaq və ya onları çıxış

əldə etmək üçün) telefon və ya cihazınızda qəbul və ya rədd etmək kimi seçimləri olan peyda olan bildiriş alacaqsınız.

### Siz tərəfdaş və ya üçüncü tərəflərlə əlaqə yaradırsız

Biz başqa şirkətlərin bizimlə paylaşdığı və ya bizə satdığı məlumatları əldə edə bilərik. Məsələn, siz başqa şirkətə telekommunikasiya xidmətlərini almaq üçün və ya pərakəndə satıcıya sadiq qaldığınıza görə bonus proqramında qeydiyyatdan keçdiyiniz zaman şəxsi məlumatınızı bizimlə paylaşmaq icazəsi vermiş ola bilərsiniz. Mümkün olduqda, biz internet elanları, bloqlkar, videolar və ya sosial media sayltarı kimi mənbələrdən ictimaiyyət üçün açıq olan şəxsi məlumatları toplaya bilərik. Biz eyni zamanda istehlakçı məlumatlarının təkrar satıcıları kimi barənizdə olan məlumatı ictimai açıq məlumat bazalarından toplamaq və ya ümumiləşdirmək fəaliyyəti ilə məşğul olan (yerli qanunverici tələblərə müvafiq olaraq) və ya digər şirkətlərin və nəticə etibarilə bizim şəxsi məlumatınızdan istifadəmizə verdiyiniz razılıqdan şəxsi məlumtatları əldə edə bilərik. Buraya gəlir səviyyəniz, yaşınız, cinsiniz, ailə üzvlərinizin sayı və internetdən və ya rayonunuzdakı mağazalardan aldığınız məhsullar barədə məlumat da daxil ola bilər.

### Şəxsi məlumatın tərəfimizdən istifadəsi illə bağlı ümumi üsullar

Biz sizin şəxsi məlumatınızdan bütün dünya üzrə hər gün sizin kimi insanların həyatına toxunmaq və yaxşılaşdırmaq məqsədinə nail olmaq üçün istifadə edirik. Məsələn, biz məlumatınızı aşağıdakı Emal Məqsədləri üçün istifadə edirik:

- Məhsullar/Xidmətlər. Bura sizə xidmətlərin göstərilməsi və sizin tələb etdyiniz məhsul və ya nümunələrin sizə göndərilməsi daxildir.
- Müştərilərin İdarə Edilməsi. Bura aşağıdakılar daxildir:
  - Sizin müxtəlif marketinq proqramlarımız və vebsaytlarımız üçün müəyyən etmək və autentifikasiya etmək
  - Hesab və parametrlərinin idarə edilməsi və saxlanılması, habelə maliyə stimulu, mükfatlar, endirimləri (məsələn qiymət və ya xidmət kuponlar) və loyallıq proqramları (birlikdə, “Mükafat Proqramları”)
  - Sizə P&G saytını və ya tətbiq parametrlərinizi idarə etməyə köməkliyin göstərilməsi
  - Sizə müsabiqələrimizdə və ya lotoreyalarımızda iştirak etmək imkanının verilməsi
- Aşağıda göstərildiyi kimi Müştəri Xidməti/Kommunikasiyalar:
  - Suallarınıza və ya informasiya üçün sorğularınıza cavabların verilməsi
  - Müştəri xidmətinin təmin edilməsi
  - Tranzaksiyalarla əlaqəli mesajların göndərilməsi (hesabdan çıxarış və ya təsdiqləyici arayışlar kimi)
  - Sosial mediada sizinlə qarşılıqlı əlaqənin qurulması

  - Məhsul və ya xidmətlərimizlə (və ya tərəfdaşlarımızın məhsul və ya xidmətləri ilə bağlı) bağlı marketinq yazışmalarının və dəvətnamələrin göndərilməsi

- Aşağıda göstərildiyi kimi Ödəniş/Maliyyə:

  - Bizdən aldığınız məhsullara görə ödənişinizin emal edilməsi

  - Vəsaitlərin və toplanılmış pul vəsaitlərin geri ödənilməsinin emal edilməsi və həyata keçirilməsi

- Reklam xidmətlərinin göstərilməsi. Bura sizə müvafiq reklamları təqdim edilməsi və xüsusi və bənzər auditoriyalar vasitəsilə müvafiq reklamlarla bizdən xəbər eşitmək istəyən sizə bənzər profili olan başqalarına xidmətin göstərilməsi daxildir. Məsələn, biz şifrələnmiş epoçt ünvaınnızı seosial media xidmətinə yükləyə bilər və həmin sosial media xidmətindən reklamlarımızı sizin və digər insanlar haqqında məlumaları əsasında sizə və sizi kimi oxşar maraqları olan, o, cümlədən digər ölkələrdən olan başqa insanları göndərməyi xahiş edə bilərik

- Reklam kampaniyalarının effektivliyinin ölçülməsi və izlənilməsi və reklam kampaniyalarına münasibətdə digər inzibati və mühasibatlıq fəaliyyətlərinin icrası kimi Reklam İnzibatçılığı

- Keyfiyyət və Təhlükəsizlik, o cümlədən:

  - Keyfiyyətə nəzarət, təlim və analitika

  - Təhlükəsizliyin təmin edilməsi və yoxlanılması

  - Sistemin inzibatçılığı və texnologiyanın idarə edilməsi, o, cümlədən vebsayt və tətbiqlərimizin optimallaşdırılması

- Təhlükəsizlik, o cümlədən təhlükələrin aşkar edilməsi və ziyanlı və ya fırıldaqçılıq fəaliyyətlərinə qarşı müdafiənin təşkili

- Sənədlərin qeydiyyatı və audit, o, cümlədən istehlakçılarla sənədlərin saxlanılması və istehlakçıalrla qarşılıqlı əlaqəlıərin auditi,o, cümlədən tranzaksiya informasiyasının bir hissəsi kimi qeydiyyat jurnalları və sənədlərin saxlanılması

- Hüquq/Tələblərə uyğunluq,o, cümlədən risklərin idarə edilməsi, audit və araşdırmaların aparılması, hesabatların verilməsi və digər hüquqi və tələblərə uyğunluq səbəbləri.

- Aşağıda qeyd olunduğu kimi Tədqiqat və inkişaf (“TvəD”)

  - Daxili araşdırma üçün

  - Bizim müştərilərimizi sevindirən məhsul, xidmət və proqramları dizayn edib və inkişaf etdirmək

- Bizə şəxsi məlumatınızı təqdim etdikdə **məlumatların toplanılması zamanı açıqlanmış məqsədlər**

- Şəxsi məlumatlarınızın toplanılmasının məqsədinə uyğun gələn və qanunvericiliklə qadağan edilməyən **Legitim biznes məqsədləri**

## Kukilərdən necə istifadə edirik

Kukilər siz internetdə dolaşdıqca kompüterinizə göndərilən kiçik fayllardır. Bu fayllarda sizin ziyarət etdiyiniz vebsaytlarla qarşılıqlı əlaqədə olduğunuz haqqında faydalı məlumat saxlanılır. Kuki fayllarının necə idarə edilməsi ilə bağlı ətraflı məlumatı buradan əldə edə bilərsiz.

Biz aşağıda qeyd olunduğu kimi kuki fayllarından bir neçə şəkildə istifadə edirik:

- sizə vebsaytda axtarış etmək və onun funksiyalarında istifadə etməyə imakn vermək üçün
- sizi müvafiq reklamlarla təmin etmək və bu reklamların effektivliyni ölçmək üçün
- sizə lazım olduğundan çox reklamların göstərilməməsini təmin etmək üçün ("reklamların nümayiş olunduğu tezlik həddi" adlanır)
- P&G məzmunu ilə əlaqəniz barədə ətraflı məlumat almaq üçün
- vebsaytlarımıza daxil olan zaman təcrübənizi artırmaqda bizə kömək etmək üçün
- hər dəfə vebsayta daxil olduqda onu fərdiləşdirməməniz üçün dil və ya region kimi tərcihlərinizi yaddaşda saxlamaq üçün
- xətaları aşkar və həll etmək üçün
- vebsaytlarımızın nə qədər yaxşı işlədiyini təhlil etmək üçün

## İstifadə etdiyimiz kuki fayllarının növləri

**Ciddi zəruriəti olan kukilər:** Bu kuki faylları (bəzən onlara "zəruri" kimi də istiand edirlər) səhifəni yükləməyə və ya zəruri funksionallığı təmin etməyə imkan verir. Bu funksionallıq olmadan səhifə işləməyəcək (yəni, alış-veriş səbətində məlumatınızın saxlanılması).

**Funksional kukilər:** Bu kuki faylları saytlara yenidən daxil olduğunuzda tərcih etdiklərinizi xatırlamağa kömək edir. Məsələn, birinci dəfə daxil olduğunuzda saytı fransız dilində oxumağı seçmişdinizsə, növbəti dəfə sayta döndüyünüzdə o, avtomatik olaraq fransız dilində açılacaqdır. Hər dəfə dil tərcihini seçməmək saytdan daha rahat, daha səmərəli və asan istifadə etmənizə kömək edir.

**Reklam / Hədəf kukiləri:** Bu kukilər daxil olduğunuz vebsaytlar və aldığınız məhsullara əsasən ümumi maraqlarınız barədə öyrənmək üçün istifadə edilə bilər. Bu məlumat ehtiyaclarınıza daha uyğun olan və bəyənəcəyiniz məhsul və xidmətlər barədə reklamları sizə göndərmiyimizə imkan verir. Eyni zamanda bu, eyni reklamı görmə sayını məhdudlaşdırmağımıza imkan verir.

**Analitik / Fəaliyyət kukiləri:** Bu kuki faylları hansı səhifələri ziyarət etdyiniz və hansı keçidlərə kliklədiyiniz kimi vebsaytlarımızdan necə istifadə etdiyiniz haqqında bizə məlumat verir. Biz vebsaytlarımızın fəaliyyətini ölçməyə və təkmilləşdirməyə imkan verir. Biz müxətlif yurisdiksiyalarda müxtəlif analitik kuki fayllarından istifadə edirik. Bir çox hallarda, Google analitik kukilərindən saytlarımızın necə işlədiyini yoxlamaq üçün istifadə edirik. Bizim saytlarımıza daчil olmanız barədə Google Analytics ilə toplanan məlumatdan istifadə etmək və onu paylaşmaq imkanımız Google Analytics İstifadə Şərtləri və Google Məxfilik Siyasəti ilə məhdudlaşdırılmışdır.

**Sosial Mediadan kuki faylları**: Sayta əlavə etdiyimiz sosial media xidmətləri tərəfindən təyin olunan bu kuki faylları sizə məzmunumuzu dostlarınız və şəbəkənizlə paylaşma, bizə isə saytlarımıza ziyarətlərinizlə əlaqəli bu sosial platformalarda sizə reklamları təqdim etməklə sizinlə əlaqə saxlamaq imkanını verir. Məsələn Facebook kimi sosial media saytlarının bəzi kuki faylları həmçinin hədəflənmiş reklam üçün istifadə olunur.

## Marağa uyğun reklamlar

Ortaq saytlarımıza daxil olduğunuzda sizə görmək istədiyinizə inandığımız reklam və ya başqa məzmunları göstərə bilərik. Məsələn, uşaq paltarı və ya məktəb ləvazimatı satılan saytlara daxil olduğunuzu gördüyümüzdə siz Tide® yuyucu tozu ilə bağlı reklam ala bilərsiniz. Bu məlumatdan da biz uşaqlarınızın olduğunu və bu səbəbdən güclü yuyucu tozla bağlı marağınız ola bildiyini anlaya bilərik. Bu yolla sizin üçün faydalı ola bilən məhsullarımız barədə müvafiq məlumatı sizə göndərə bilərik. Marağa uyğun reklamla bağlı seçimləriniz haqqında ətraflı məlumatəldə etmək üçün bura keçid edin.

**Biz eyni maraqları paylaşan istehlakçı qruplarından öyrənirik:** Biz sizi eyni maraqları paylaşan müəyyən istehlakçı qrupuna daxil edə bilərik. Məsələn, tez-tez onlayn şəkildə ülgüc aldığınızı gördüyümüzdə və ya endirimdə alış-veriş etməyi xoşladığınızı bildiyimizdə sizə onlayn kuponlar və ya endirimlər barədə məlumat göndərmək üçün sizi "ülgüc sevənlər" qrupuna daxil edirik. Sizin müəyyən veb səhfələrdə davranışınız, veb səhifələrimizdə və ya başqa ziyarət etdiyiniz vebsaytlarda keçidləri açdığınızda, istifadə etdiyiniz mobil proqramlarda və ya brendlərlə bağlı e-poçtlarımızı açdığınızda və oradakı keçidlərə vurduğunuzda, habelə pərakəndə satış tərəfdaşları və digər üçüncü tərəflər kimi tərəflərdən topladığımızı digər məlumat əsasında haqqınızda bu qənaətə gələ bilərik. Biz ümumi trendlər, vərdişlər və ya xassələr barədə məlumat almaqda bizə kömək etmək üçün bənzər onlayn və/və ya oflayn fəaliyyətlər göstərən istehlakçı qruplarının kuki və cihaz ID-lərini bir yerdə qruplaşdırırıq. Beləliklə, biz artıq qrupda olanlarla bənzər maraqları olanları tapa və onlara xidmət göstərə, eləcə də onlar üçün faydalı və müvafiq olacağını hesab etdiyimiz təklif və məlumatlar təqdim edə bilərik.

**Biz başqa məlumatları sizin kuki və cihaz ID-lərinizə qoşuruq:** Sizin kuki və cihaz ID-ləriniz oflayn rejimdə aldığınız məhsullar barədə məlumat kimi başqa məlumatla və ya saytlarımızda hesab yaradan zaman birbaşa bizə təqdim etdiyiniz məlumatla tamamlana bilər. Biz bunları sizi şəxsən müəyyən edə bilməyəcək şəkildə edirik. Məsələn, biz ID ABC12345 saylı kukinin ülgüc sevənlər qrupuna aid olduğunu insanın daxil olduğu vebsaytlar, yaşı, cinsi və alış-veriş vərdişlərindən öyrənə bilərik. Nə zamansa sizin kuki və ya cihaz məlumatınızın (veb və proqrama baxış tarixçəsi) kimliyinizi müəyyən etməsini istəyəriksə, bu zaman müvafiq qanunvericiliyə uyğun olaraq bunu edəcəyik.

**Biz sizin bütün kompüterləriniz, planşetləriiz, telefonlarınız və cihazlarından sizi tanıya bilərik:** Biz ID ABC12345 saylı kukinin ID EFG15647 saylı cihaz qoşulu olan mobil telefonun sahibi olan şəxs və ya ailəyə aid olduğunu bilə bilərik. Bu o deməkdir ki, siz laptopunuzda uşaq bezi axtardığınızda bizim sponsorluq etdiyimiz Google axtarış keçidinə vursanız, sonra mobil telefonunuzda Pampers® brendinin uşaq bezləri barədə reklam görəcəksiniz. Kompüter və telefonun eyni şəxsə aid olduğunu onların hər gün eyni vaxtda eyni WiFi şəbəkəsinə qoşulmasından müəyyən edə bilərik. Hansı cihazların şəxs və ya ailə tərəfindən istifadə etməsini anlamaq bizə eyni reklamın cihazlarınızda görünmə sayını məhdudlaşdırmağımıza kömək edir. Və bu vacib məqamdır, çünki bu yolla sizə eyni reklamı dəfələrlə göstərdiyimiz üçün bizi spam hesab etməyəcək və biz sizin istəmədiyiniz reklamları təkrarən sizə göstərmək üçün ödəniş etməyəcəyik.

**Ünvanlı Media:** Saytlarımız və ya tətbiqlərimiz vasitəsi ilə bizə şəxsi məlumatlarınızı təqdim etdiyiniz zaman bəyənə biləcəyinizi düşündüyümüz reklamları sizə təmin etmək üçün bu məlumatların şifrələnmiş nüsxəsindən və ya The Trade Desk's UID2 kimi əvəzedici bir identifikatordan bəzən istifadə edə bilərik. Biz bunu epoçt ünvanınızın, telefon nömrənizin və ya mobil telefonunuzun reklam İD-nin psevdonimləşdirilmiş versiyasını (süni hərf və ya rəqəmlərlə əvəzlənmiş) reklam yeri verən platfromaya (məsələn, Facebook, YouTube, Instagram, TikTok, və sairə) yükləməklə edirik. Eyni məlumatları açıq veb vasitəsi ilə sizə reklam təmin etmək üçün istifadə edirik. Yəni ki, siz Inytimes.com kimi saytlarda və ya tətbiqlərdə və ya reklam inventarının onlayn auksionlarında iştirak edən rəqəmsal TV kimi digər yerlərdə bizdən müvafiq reklamlar görə bilərsiniz.

**Advanced Matching:** Bizim bəzi saytlarımızda Sosial Media Platformaları tərəfindən reklamçılarına təklif edən Advanced Matching funksiyaları istifadə edilir (məsələn Facebook's Advanced Matching, TikTok's Advanced Matching). Advanced Matching vasitəsilə biz brauzer kukiniz yaxud cihaz identifikatorunuz ilə uyğunluğunuzun müəyyənləşdirilməsinə kömək etmək məqsədilə sayt forması sətirlərində daxil etdiyiniz bəzi psevdonimləşdirilmiş formatda şəxsi məlumatları (məs., adınız, e-poçt ünvanınız və telefon nömrəniz – hər hansı həssas yaxud xüsusi kateqoriyadan olan məlumatlar deyil) Sosial Media Platformasına göndərəcəyik yaxud Sosial Media Platformasının pikseli həmin məlumatları psevdonimləşdirərək əldə edə bilər. Biz bunu müvafiq Sosial Media platformalarında reklam xidmətimizin effektivliyini daha yaxşı hədəfə ala və müəyyən edə bilmək üçün edirik. Bu yolla verilən Sosial Media Platformasında sizə reklam göstərdiyimizi, onun üzərinə kliklədiyinizi, saytımıza daxil olduğunuzu və nəsə aldığınızı, yaxud bunların heç birini etmədiyinizi və buna görə də həmin Sosial Media Platformasında reklamlar almağı davam etdirməli olub-olmadığımızı bilməyimiz mümkün olur.

**Google Analytics Reklam Funksiyaları**: Saytlarımızdan bəziləri reklamçılara təklif etdiyi xidmət olan Analitik Məlumatlarla Axtarış Reklamları üüçn Google-un Təkrar Marketinq Siyahılarından ("RLSA"), istifadə edirlər. Şəxslər bizim saylatımızı ziyarət edəndə, Google Analytics onların ziyarəti haqqında məlumatı toplayır (hər hansı həssas şəxsi və ya xüsusi kateqoriyadan olan məlumatları deyil). Ziyarətçi Googl hesabına daxil olubsa biz həmin istifadəçiyə ziyarət etdiyi P&G sayıtna aid maddələlərlə bağlı Google axtarışı edərkən marağa uyğun reklamla təmin edə bilirik. Məsələn bizim Head & Shoulders vebsaytımızı ziyarət edərkən Google hesabınıza daxil olmusunzuda biz tərəfinizdən Google saytında "kəpəyə qarşı şampun" axtarış edildikdə sizə Head & Shoulders reklamını göstərə bilərik. Bizim saytlarımıza daчil olmanız barədə Google Analytics ilə toplanan məlumatdan istifadə etmək və onu paylaşmaq imkanımız Google Analytics İstifadə Şərtləri və Google Məxfilik Siyasəti ilə məhdudlaşdırılmışdır. Siz tərəfdaş saytlar və ya tətbiqlərdən istifadə etdiyiniz zaman Google-un məlumatlardan necə istifadə etməsini başa düşmək üçün buranı ziyarət edin. Siz istənilən vaxt Google Analytics-dən imtina edə bilərsiniz.

### Tərəfimizdən istifadə oluna biləcək digər texnologiyalar

**Yaxınlıq əsaslı mayaklar:** Mayaklar telefonda quraşdırdığınız mobil proqramlara çox qısa yollarla bir tərəfli siqnallar göndərir və mağazaya baxdığınızda sizə endirimdə olan məhsulları sizə bildirir. Mayaklar yalnız kifayət qədər yaxınlaşdığınızda və xüsusi mayakla bağlı mobil proqramda razılıq verdiyinizdən sonra cihazla danışır. Əvəzində sizi fərdi reklamlar və təkliflərlə təmin etməmiz üçün proqramlar bizə yeriniz barədə məlumat verə bilər. Məsələn, supermarketdə dəriyə qulluq bölməsində mayak yanında olduğunuzda biz sizə 4$ dəyərində endirim kuponu göndərə bilərik.

**Piksellər:** Bunlar veb səhifəyə daxil edilmiş, lakin görünməyən kiçik obyektlərdir. Onların başqa adları "teqlər", "veb böcəklər" və ya "piksel gifləridir". Biz kompüterinizə kukilər göndərmək, vebsayt

fəaliyyətinizi yoxlamaq, saytlarımıza girişinizi asanlaşdırmaq və onlayn marketinq fəaliyyətləri üçün piksellərdən istifadə edə bilərik. Biz eyni zamanda, açdığınızı və ya kilklədiyinizi müəyyən etmək üçün reklam xarakterli e-poçt mesajları və ya bülletenlərimizə piksellər də daxil edə bilərik. Bu bizə sizin aktiv istifadəçi olub olmadığınızı müəyyən etməyə kömək edir (bu da fəaliyyətsizliyə görə sizin məlumatlarınızın silinməsinin qarşısını alacaq). Bu, həmçinin, bizə marketinq səylərimizin effektivliyini ölçməyə və kommunikasiyalarımızın məzmunun şəxsiləşdirmək üçün istifadə edəcəyimiz müəyyən nəticələr və analiz əldə etməyə və marketinq qərarlarımızı istiqamətləndirməyə kömək edir (məsələn, elektron məktubu açmısınızsa, amma ora daxil olan keçidlər üzərinə klikləməmisinizsə biz facebook-da sizə yenidən hədəflənmiş reklamlar göndərməyi qərara ala bilərik).

**Mobil cihaz eyniləşdiriciləri və SDK-lar:** Biz bizim vebsaytlarımızda kukilərin hansı məliumatları topladığı kimi bizim tətbiqlərimizdən istifadə etdiyiniz zaman məlumat toplamaq üçün mobil ttəbiqlərimizdə proqram təminatı kodundan istifadə edirik. Bu, mobil telefon eyniləşdiriciləri (iOS IDFA və Android Reklam ID-ləri) və proqramlarımızdan istifadəniz kimi məlumat olacaq.

**Dəqiq Geolokasiya:** Biz mobil proqramlarımızdan istifadə etdiyiniz zaman qlobal yerləşdirmə sistemi (GPS) koordinatları (uzunluq və en) kimi proqramlardan dəqiq yeriniz barədə məlumat ala bilərik. Siz hər zaman telefon və ya cihazınızda dünyanın harasında olduğunuz barədə məlumatı bizə bildirməklə bağlı qəbul və ya rədd etmək kimi ani mesaj alacaqsınız. Siz anlamalısınız ki, biz həmişə sizin şəhər, poçt indeksi və ya əyalər kimi ümumi məlumatı almaqla bağlı razılığınızı istəməyəcəyik. Məsələn, biz sizin Filippin adaları, Manila şəhərində olduğunuzu bildiyimiz halda onun sizin dəqiq yeriniz olduğunu nəzərə almırıq.

### Sayt və proqramın məzmunu

**Plaginlər:** Bizim vebsaytlarımıza sosial şəbəkələr kimi digər şirkətlərin plaqinləri daxil ola bilər. Facebookun "Bəyən" düyməsi plaqinin nümunəsidir. Bu plaqinlər məlumatları toplaya bilər (məsələn sizin ziyarət etdiyiniz səhifənin URL ünvanı) və bu məlumatları onları yaradan şirkətə geri göndərə bilər. Bu sizin hətta plaqin üzərinə klikləmədiyiniz təqdirdə də baş verə bilər. Bu plaqinlərin bizim saytlarımızda peyda olmasına baxmayaraq, onlar plaqinləri yaradan şirkətin məxfilik siyasəti və şərtləri ilə tənzimlənirlər.

**Girişlər:** Bizim vebsaytlarımız sizə məsələn "Facebook ilə daxil ol" kimi başqa şirkət hesabı ilə daxil olmaq imkanı verir. Bu zaman biz yalnız sizin razılığınız ilə bu şirkətin daxil olduğunuz hesabındakı hesab parametrlərindən əldə edilən məlumatı görəcəyik.

**İstifadəçi məzmunu:** Vebsaytlarımızın bəziləri və proqramlar sizə öz məzmununuzu müsabiqə, bloq, video və başqa funksiyalar üçün yükləməyə imkan verəcək. Lütfən, unutmayın ki, göndərdiyiniz və ya dərc etdiyiniz bütün məlumatlar ictimai şəkildə açıq olur. Biz başqalarının saytlarımız və ya proqramlarımıza göndərdiyiniz məzmunla necə davranacağı üçün məsuliyyət daşımırıq. Biz məxfilik siyasəti, qanun və ya şəxsi məxfiliyiniz və təhlükəsizliyinizi poza bilən şəkildə istifadə üçün məsuliyyət daşımırıq.

**Keçidlər:** P&G saytlarında bizim idarə etmədiyiniz başqa saytlara keçidlər ola bilər. Bu saytlar bizim deyil, öz məxfilik siyasətləri və şərtləri ilə idarə ediləcək.

### Qərarların avtomatlaşdırılmış qəbulu və profilləşdirmə

Qərarların avtomatlaşdırılmış qəbulu insan müdaxiləsi olmadan avtomatlaşdırılmış vasitələrdən istifadə edərək qərarın qəbul olunmasını nəzərdə tutur. Profilləşdirmə şəxsin şəxsi istəkləri, maraqları və ehtimal olunan davranışı və sairəni təhlil edilməsi və ya təxmin edilməsi məqsədi üçün şəxsin müəyyən şəxsi xarakteristikalarını qiymətləndirmək məqsədilə şəxsi məlumatların istifadəsindən ibarət şəxsi məlumatlaarın avtomatlaşdırılmış emal formasıdır.

Hazırki Məxfilik Siyasətindən oxuduğunuz kimi biz həm sizdən, həm də kommersiya cəhətdən digər mövcud olan mənbələrdən müxətlif çeşiddə şəxsi məlumatları toplayırıq. Bu məlumatlar bəzən alqoritmlərin istifadəsi də daxil olmaqla, müəyyən davranışlarla şəxsi xarakteristikalar arasında əlaqəni müəyyən etmək üçün birləşdirilərək təhlil edilə bilər. Oxşar xarakteristikaları olan və ya oxşar hərəkətləri icra etmiş P&G istifadəçiləri çox güman ki, bizim məhsullarımıza münasibətdə oxşar maraqları paylaşırlar: bu təhlil əsasında, P&G istehlakçılarının seqmentləri elektron poçt, onlayn reklam və sosial media vasitəsilə müvafiq təkliflərlə müvafiq şəkilfə hədəfə alınırlar.

Bu prosessizin bəyan edilmiş və ya məntiqi nəticə çıxardığımız maraqlarınızı uyğun kommunikasiyalarımızı fərdiləşdirmək imkanını verir. Buna baxmayaraq, biz Məlumatların Mühafizəsi üzrə Ümumi Reqlamentin Maddə 22 (1) və (4) əsasən profilləşdirmə də daxil olmaqla hüquqi təsiri ola bilən və ya oxşar şəkikdə hüquq və azadlqılarınıza əhəmiyyətli dərəcədə təsir edə bilən avtomatlaşdırılmış qərar-qəbuletmə proseslərini aparmayacağıq və daha çox müdaxilə xarakterli profilləşdirmə və izləmə təcrübələrinə keçmək istədiyimiz təqdirdə həmişə sizə bu barədə məlumat verəcəyik və qanunvericilik trəfindən tələb olunduqda bunu etməmişdən əvvəl sizin razılığınızı istəyəcək və ya sizə bundan imtina etmək hüququnu verəcəyik.

---

## Şəxsi məlumatlari necə açiqlayiriq –

### Sizin razılığınız ilə

Razılığınızı aldıqda seçmə tərfdaşlarımızın sizin üçün maraqlı ola biləcəyinə inandığımız təklif, kampaniya məlumatı və ya məhsul və xidmətləri barədə reklam göndərmələri üçün şəxsi məlumatınızı onlara açıqlaya bilərik. Məsələn, Pampers® kimi bəzi brendlərimizdən P&G e-poçt məktubları alan insanlar başqa şirkətlərin məhsulları olan uşaq formulaları barədə də məlumat almağa razılıq verə bilərlər.

### Onlayn platformalar və reklam texnologiyası şirkətləri

Bizim vebsayt və tətbiqlərimiz özündə razılıq və/və ya imtina ehtiva edə biləcək qüvvədə olan qanunverici tələblərə əsasən sizə müvafiq reklam və təklifləri təqdim etməkdə bizə kömək etmək üçün onlayn platformalar və reklam texnologiyası şirkətləri ilə əlaqə məliumatını, unikal identifikatorları, ehtimal edilən və törəmə məlumatları, onlayn və texniki məlumatları, habelə geolokasiya verilənlərini paylaşa bilərlər. Biz pul kompensasiyası müqabilində P&G xaricində marketerlərə şəxsi məlumatlarınızı satmırıq. Əlavə məlumat üçün xahiş edirik məxfiik siyasətimizin ABŞ Ştatının Məxfilik Bildirişi bölümü ilə tanış olun.

### Təchizatçılar

Biz şəxsi məlumatlarınızı bizə biznesimizi idarə etməyə kömək edən təchizatçılaramıza açıqlaya bilıər və ya onların onlardan istifadəsinə şərait yarada bilərik (o, cümlədən müvafiq qanunvericilik

çərçivəsində müəyyən edilmiş "xidmət təchizatçıları" və "emalçılara" hansılarına ki, burada birlikdə "**xidmət təchizatçıları**" və ya "**təchizatçılar**" kimi istinad edilir). Bura saytlarımızın hostinqi, saytlarımız üzərindən tərəfinizdən edilmiş alışlar üçün ödəniş məlumatının emalı, elektron məktubları və marketinq kommunikasiyaların sizə çatdırılması, topladığımız məlumatların təhlil edilməsi, satışların kimə və ya nəyə aid edilməsinə müəyyən etməyə köməklik göstərilməsi (məsələn bizim sizə platforma saytında reklam nümayiş etdirdiyimizi və sizin də sonradan bizdən məhsul alıb almadığınızı bilmək üçün) və sizin istədiyiniz məhsul və xidmətləri sizə göndərilməsi daxildir. Biz, həmçinin, şəxsi məlumatınızı hüquqşunas, auditor və məsləhətçilərl, informasiya texnologiyaları və təhlükəsizlik şirkətlərinə və bizə xidmət təmin edən başqa tərəflərə açıqlaya bilərik.və ya onların ondan istifadəsinə şərait yarada bilərik. Biz tələb etdiyimiz tapşırıqları tamamlamaq üçün yalnız bu şirkətlərə lazım olan şəxsi məlumatarı açıqlayıb və ya təqdim edirik və qüvvədə olan qanunvericilik tərəfindən icazə verilən hallarda təhlükəsizlik və ya fırıldaqçılığın aşakarlaması kimi daxili məqsədlər üçün şəxsi məlumatlaran istifadə edirik. Biz xidmət təchizatçılarımızə şəxsi məlumatlarınızı müvafiq şəkildə etmal etmək və mühafizə etmək üçün təlimatlandırırıq.

### Alışlar üçün ödənişlər

Bəzi saytlarımız vasitəsilə edilmiş alışlar üçün ödənişlər üçüncü tərəf təchizatçısının onlayn ödəniş sistemindən istifadə edərək həyata keçirilir. Bu saytlar üçün, P&G şirkətinin alış üçün təqdim etdiyiniz kredit kartı məlumatına çıxışı yoxdur və o bu üçüncü tərəf sistemləri çərçivəsində sizin kredit kartı məlumatlarınızı nə saxlayır, nə də onları açıqlayır. Bu saytlarda onlayn ödəniş sisteminə təqdim etdiyiniz şəxsi və maliyyə məlumatı üçüncü tərəfin məxfilik siyasəti və istifadə şərtləri ilə tənzimlənir və biz sizdən hər hanı bir şəxsi və ya maliyyə məlumatını təqdim etmədən öncə bu qaydaları nəzərdən keçirməyi tövsiyə edirik.

### Hüquqi və oxşar səbəblər

Şəxsi məlumatlarınızı idarə edən brend və ya bizneslərimizdən biri və ya onun bəzi və ya bütün biznes aktivləri digər bir şirkətə satılarsa sizin şəxsi məluamtlarınızı həmin şirkətə açıqlanacaqdır. Biz həmçinin məlumatınızı bizım hüquq və əmlakımızı müdafiə etməyə kömək edən şirkətlərə və ya qanunvericilik tərəfindən tələb olunan hallarda məhkəmə proseslərinə, səlahiyyətli hökumət orqanlarına və ya özümüzün və ya başqalarının hüquq və ya maraqlarını müdafiə etmək üçün ağlabatan şəkildə tələb olunan hallarda açıqlaya bilərik.

---

## Topladığımız şəxsi məlumatların növləri –

**Dünyanın bir çox ölkələrindən məhsul və biznesləri olan böyük bir şirkət olaraq biz istehlakçılarımıza ən yaxşı xidməti göstərmək üçün aşağıda qeyd olunmuş şəxsi məlumat növlərini toplayırıq.**

Xahiş edirik nəzərə alın ki, bu topladığımız şəxsi məlumatların müxətlif növlərinin hərtərəfli siyahısıdır və biz onları yalnız qanuni tələblərə uyğun olaraq və buna hüquqi əsasımız olduğu halda toplayırıq (məsələn, bizdə sizin buna razılığınız olduqda və ya bu məlumat bizə sizin tərəf olduğunuz müqaviləni icra etmək üçün lazım olduqda və ya məlumatların emalı qanuni maraq əsasında və ya hüquqi öhdəliyin tələblərinə əməl etmək üçün zəruri olduqda). Bu məlumat toplama növlərinin bir çoxusu demək olar ki, sizə şamil edilməyəcək. Haqqınızda həqiqətən hansı məlumatlara sahib olduğumuzu bilmək istəyirsinizsə, bizimlə buradan əlaqə saxlayın (Qeyd: Sol yuxarı küncdəki düyməyə kliklməklə yaşadığınız düzgün yeri/ölkəni seçdiyinizə əmin olun).

## Adətən nələri toplayırıq

**Əlaqə Məlumatı:** Bu kateqoriyada olan məlumat ünsürlərinə adlar (o, cümlədən ləqəb və əvvəlki adlar), titullar, poçt ünvanı, elektron poçt nüvanı, telefon/mobil telefon nömrəsi və aidiyyati şəxslərin əlaqə məlumatı (hesabınızın səlahiyyətli istifadəçiləri) daxildir.

**Ümumi Demoqrafik və Psixoqrafik Göstəricilər:** Bu kateqoriyada olan məlumat ünsürlərinə üçüncü tərəflərin təqdim etdiyi yaş diapazonu, ailə vəziyyəti, irqi və etnik mənsubiyyət (məsələn saçlarınıza və ya dərinizə qulluqla bağlı alışlar və ya tərcizhlərinizlə bağlı təqdim etdiyiniz məlumatla bağlı), alış-veriş istəkləri, danışılan dillər, loyallıq və mükafat proqramı üzrə məlumat, ailə təsərrüfatının demoqrafik məlumatı, sosial media platformalarından məlumat, təhsil və iş barədə məlumat, hobbi və maraqlar və meyllik nəticələri (alış etmə ehtimalı, həyat hadisəninin təcrübəsi) kimi şəxsi xarakteristika və parametrlər daxildir.

**Tranzaksiya və Kommersiya Məlumatı:** Bu kateqoriyadan olan məlumat ünsürlərinə müştərinin hesab məlumatı, kvalifikasiya məlumatı, alış-veriş tarixçəsi və aidiyyatı qeydlər (qaytarılan məhsullar, məhsul xidməti barədə qeydlər, ödəniş qeydləri, kreditlər və sairə), məhsul və tətbiqlərinin endirilməsi və alışına aid qeydlər, istehlakçıların autentifikasiyası üçün toplanılan qeyri-biometrik məlumatlar (şifrə, hesabın təhlükəsizliyi üçün suallar), eləcə də müştəri xidməti üzrə qeydlər daxildir.

**Təkrarolunmaz İdentifikatorlar və Hesab Məlumatlar:** Bu kateqoriyadan olan məlumat ünsürlərinə təkrarolunmaz İdentifikator nömrəsi (müştəri nömrəsi, hesab nömrəsi, abunə nömrəsi, mükafatlandırma proqramı nömrəsi), sistem identifikatorları (istifadəçi adı və ya onlayn məlumatlar daxil olmaqla), cihaz reklamçıları, reklam identifikatorları və İP ünvanı daxildir.

**Onlayn və Texniki Məlumat:** Bura internet və ya digər elektron şəbəkədə fəaliyyət barədə məlumat daxildir. Bu kateqoriyadan olan məlumat ünsürlərinə IP ünvanıları, MAC ünvanları, SSID və ya digər cihaz identifikatorlar və ya israrlı identifikatorkar, onlayn istifadəçi İD-ləri, şifrələnmiş parollar, cihaz xarakteristikalaır (brauzer məlumatı kimi), veb server jurnalları, tətbiq jurnalları, brauzinq məlumatı, baxış məlumatl (TV, internetdən yayım), vebsayt və tətbiqdən istifadə, birinci tərəf kukiləri, üçüncü tərəf kukiləri, veb mayaklar, şəffaf gif faylları və piksel teqləri daxildir. Bura həmçiinin cihaz funksionallığı (brauzer, əməliyyat sistemi, kompüter avadanlığı, mobil şəbəkə məlumatı), sizi vebsayta yönləndirən URL; bizim vebsayt və ya tətbiqlərimiz daxilində ziyarət etdiyiniz yerlər və oradakı fəaliyyətiniz (o, cümlədən e-məktublar,e-məktublar daxiiində olan keçidləri açmanız və ya onlara klikləməyiniz); cihazınızın xarakteristikaları; və və cihaz məlumatı və günün vaxtı kimi məlumat daxildir.

**Nəticə kimi çıxarılmış məlumat:** Bura bu bölümdə sadalanmış digər şəxsi məlumatdan törəmə məlumat daxildir. Biz haqqınızda olan bütüm şəxsi məlumatları təhlil etməklə nəticə çıxarılmış və törənmiş məlumat ünsürlərini yaradırıq. Bu kateqoriyada olan məlumat ünsürlərinə daxili analitik proqramlar tərəfindən yaradılmış meylliklər, attributlar və/və ya nəticələr daxildir.

## Bəzi hallarda nələri toplayırıq

**Bəzi hallarda** həssas şəxsi məlumatlar və ya xüsusi kateqoriyadan olan məlumatlar toplayırıq və onları yalnız qanuni tələblərə uyğun olaraq və buna hüquqi əsasımız olduğu halda toplayırıq (məsələn, bizdə sizin buna razılığınız olduqda və ya bu məlumat bizə sizin tərəf olduğunuz

müqaviləni icra etmək üçün lazım olduqda və ya məlumatların emalı qanuni maraq əsasında və ya hüquqi öhdəliyin tələblərinə əməl etmək üçün zəruri olduqda).

**Dəqiq geolokasiya:** Bu kateqoriyada olan məlumat ünsürlərinə dəqiq yer daxildir (en/uzunluq dairəsi kimi).

**Sağlamlıqla bağlı məlumat:** Məlumatın toplanma tərzi əsasında məlumat ünsürlərinə aşağıdakılar daxildir:

- İstehlakçı proqramlarından toplanılmış məlumat (brend saytlarımızda qeydiyyat keçdiyiniz, mükafatlandırma proqramlarında iştirkınızı və ya məhsullarımızı aldığınız zaman)
  - Ümumi sağlamlıq və simptomlar barədə məlumat, məsələn, kəpək və saç tökülməsi, uşaq bezi səpgiləri və s.
  - Doğuş tarixi kimi hamiləliklə əlaqəli məlumat
- Məlumatlı şəkildə razılığınızı bildirdiyiniz yerlərdə İstehlakçı Araşdırmalarının Öyrənilməsi
  - Fiziki və ya əqli sağlamlıq, xəstəliyin durumu, xəstəlik tarixçəsi və ya tibbi müalicə və ya diaqnoz, qəbul olunmuş dərmanlar haqqında məlumat və aidiyyati infromasiya
- Məhsullarımızdan birinin istifadəsi ilə əlaqəli şikayəti və ya mənfi hadisəni bildirmək üçün bizimlə əlaqə saxladığınızda toplanılan məlumat

**Maliyyə hesabı haqqında məlumat:** Bu kateqoriyadan olan məlumat ünsürlərində bank hesabı nömrəsi və məlumatı və ödəniş kartı barədə məlumat daxildir (məsələn siz birbaşa brenddən alış etdikdə və ya brenddən kredit əldə etdikdə).

**Hökumət tərəfindən veirlən şəxsiyyət vəsiqələri:** Bu kateqoriyadan olan məlumat ünsürlərinə hökümət tərəfindən veirlmiş şəxsiyyət vəsiqəsi və VÖEN daxildir (məsələn, məlumatın toplanılması bizdən tələb olunan yurisdiksiyalarda müsabiqə qalibləri üçün).

Müəyyən şəxsi məlumatlar ABŞ məxfilik qanunlarında “həssas şəxsi məlumat” və ya “xüsusi kateqoriyalı məlumat” kimi təsnif edilir və biz bunlara ABŞ Ştatının Məxfilik Bildirişində “həssas şəxsi məlumatlar və ya xüsusi kateqoriyalı məlumatlar” kimi istinad edirik. ABŞ-ın bəzi Məxfilik Qanunlarına görə müəyyən

istisnalar və azadolmalara tabe olmaqla, ləğv edilə bilən həssas şəxsi məlumatların və ya xüsusi kateqoriyalı məlumatların emalı üçün razılıq tələb olunur (məsələn, həssas şəxsi məlumatların və ya xüsusi kateqoriyalı məlumatların emalı məhz tərəfinizdən tələb olunmuş məhsul və ya xidməti təmin etmək üçün tələb olunduqda). Yaşadığınız ştatdan asılı olaraq müvafiq olduğu halda məlumatlar müəyyən daxili biznes məqsədləri xaricində istifadə olunar və ya açıqlanarsa, siz belə razılığı ləğv etmək və/və ya şirkətlərə həssas şəxsi məlumatların və ya xüsusi kateqoriyalı məlumatların istifadəsini və açıqlanmasını məhdudlaşdırmaq göstərişi vermək hüququna maliksiniz. Siz yuxarıda qeyd edilmiş üsuldan istifadə etməklə sorğu göndərə bilərsiniz.

### Avtomatlaşdırılmış qərar qəbuletmə və profilləşdirmə ilə bağlı hüquqlar

Sizin hüquqi və ya oxşar əhəmiyyətli təsirləri olan qərarlar dəstək olaraq profilləşdirmədən imtina etmək hüququnuz var. Buna baxmayaraq, yuxarıda qeyd edildiyi kimi, biz özümüz tərəfindən imtina etmək hüquqlarını təmin etməli olduğu tərzdə profilləşdirmə və ya avtomatlaşdırılmış qərar qəbuletmə fəaliyyətlərini icra etmirik.

### Məlumatları satma/paylaşma/hədəfləmə

Əvvəlki ABŞ məxfilik qanunların əsasən istehlakçılar müəyyən emal fəaliyyətlərindən imtina etmək hüququ var idi. Bəzi ştatlarda konkret olaraq Hədəflənmiş Reklam fəaliyyətindən imtina etmək hüquqları var və Kaliforiya qanunvericiliyində buna "çarpaz kontekstii davranış rekalmaları" kimi digər ştatlarda isə Sadəcə Hədəflənmiş Reklamalar kimi istinad edilir. Bu reklamlar sizin ünvanınıza reklamları hədəfləmək üçün müxtəlif şirkətlər və ya xidmətlərdən şəxsi məluimatlarınızın istifadəsini nəzərdə tutur. Kaliforniya ştatı belə Hədəflənmiş Reklam fəaliyyətləri üçün üçüncü tərəflərə şəxsi məlumatların təqdim edilməsini nəzərdə tutan istehlakçılara məlumatların paylaşılmasından imtina etmək hüququ verir. Digər ştatlar daha geniş mənanda isə şxəsi məlumatların Hədəflənmiş Reklamlar üçün emalından imtina etmək hüququnu verir. Bunla ABŞ-ın məxfliik qanunlarına görə şəxsi məlumatların geniş və fərqli konsepsiyalarıdır və bunların hamısı minimum olaraq şəxsi məlumatların üçüncü tərəfə təqdim edilməsini və ya ona çıxışın təmin edilməsini tələb edir.

Siz aşağıdakı Emal məqsədləri üçün bizə şəxsi məlumatlarınızı təqdim etdikdə, biz sizə reklam təqdim etmək üçün bu şəxsi məlumatların bəzilərindən və ya hamısından istifadə edə bilərik. Bu, həmin Emal məqsədləri zamanı toplanmış şəxsi məlumatlarınızın üçüncü tərəflərə elə şəkildə təqdim edilməsini nəzərdə tuta bilər ki, bu hərəkət məlumatların Satışı və/və ya Paylaşılmasını, habelə Hədəflənmiş reklam məqsədləri üçün şəxsi məlumatlarınızdan istifadə təşkil etsin.

• Məhsullar/Xidmətlər.

• Müştəri idarəetməsi.

• Müştəri xidməti/Kommunikasiyalar,

• Xidməti reklamlar.

• Reklamlar üzrə inzibatçılıq,

• Məlumatların toplanması zamanı açıqlanan məqsədlər

Onlayn platformalar (Google, Amazon, Facebook və sairə) daxil olmaqla üçüncü tərəflərin rəqəmsal biznesləri və bizə reklamları yerləşdirməyə kömək edən Demand Side Platformaları kimi AdTech

şirkətləri ("**Üçüncü Tərəflərin Rəqəmsal Biznesləri**") tətbiqlərimiz və vebsaytlarımızda haqqınızda şəxsi məlumatları toplayan kuki və digər izləmə tenxologiyaları əlaqələndirə və ya rəqəmsal fəaliyyət barədə informasiya da daxil olmaqla bizim haqqınızda təqdim etdiyiniz şəxsi məlumatları toplaya və emal edə bilər. Vebsayt və ya tətbiqlərimizdə və ya Üçüncü Tərəf Bizneslərinə şəxsi məlumatlara çıxışın verilməsi Satış və/və ya Paylaşma kimi hesab oluna bilər və ABŞ-ın bəzi məxfilik qanunlarına görə Hədəflənmiş Reklamları göndərmək məqsədilə məlumatların bir məqsəd üçün emalını nəzərdə tuta bilər. Buna görə biz Üçüncü Tərəf Rəqəmsal Biznesləri tərəfindən toplanılan belə bir şəxsi məlumatlarla (məsələn, kuki İD, IP ünvanı, və digər onlayn İD-lər və internet və ya digər elektron fəaliyyət barədə məlumat) müvafiq şəkildə və yuxarda təsvir edilmiş imtina sorğularına əsasən davranacağıq. Bəzi hallarda haqqınızda təqdim etdiyimiz şəxsi məlumatlar vebsayt və ya tətbiqlərimizdə İzləmə Texnologiyalarından və a üçüncü tərəf saytlarında göstərilən reklamlardan istifadə etməklə birbaşa belə Üçüncü Tərəf Rəqəmsal Biznesləri tərəfindən toplanılır (bunlara "**kuki Şİ**" kimi istinad edirik). Bununla belə Üçüncü Tərəflərin Rəqəmsal Bizneslərimə təqdim etidiymiz müəyyən şəxsi məlumaltar sizin e-poçt ünvanınız kimi bizim əvvəllər birbaşa sizdən topladığımız və ya haqqınızda olan informasiyadır (hansına ki aşağıda "**qeyri-kuki Şİ** kimi istinad edirik").

Aşağıdakı təlimatlara əsasən imtina etdikdə bu sizin Məlumatların Satışı, Paylanılması və Hədəflənmiş Reklamlardan imtina etmək təsirinə malik olacaq ki, bizim imtina prosesimiz bütün bu imtinaları vahid imtinada birlşdirmək üçün nəzərdə tutulsun. İmtina üçün təlimatlar aşağıda verilmişdir. ***Xahiş edirik nəzərə alın ki, kuki ŞM və qeyri-kuki ŞM imtina etmək üçün bizim aşağıda ətraflı izah etdiyimiz konkret təlimatlar var.***

**Kuki olmayan ŞM-ın toplanılmasından imtina**: Hədəflənmiş Reklam məqsədilə qeyri-kuki ŞM-in (məsələn, e-poçt ünvanınız) emal edilməsi və ya həmin məlumatların Satışı yaxud Paylaşılmasından imtina etmək üçün buradan müraciət edə bilərsiniz.

**Kuki olan ŞM-ın toplanılmasından imtina**: Hədəfli reklam məqsədilə kuki olan şəxsi məlumatlarınızın tərəfimizdən emal edilməsindən və ya satılması/paylaşılmasından imtina etmək üçün kuki idarəetmə alətindən ayrıca imtina müraciəti etməlisiniz. Bunu etmək üçün vebsaytlarımızın hər birinin aşağı hissəsində və/və ya mobil tətbiqlərimizin hər birinin Parametrlər menyusunda "Şəxsi məlumatlarımı satma və ya paylaşma/Hədəfli reklamdan imtina" üzərində klikləyin. Sonra isə keçirici üçün təlimatlara əməl edin. Bunun səbəbi, kuki olan və olmayan şəxsi məlumatlardan imtinanızı tətbiq etmək üçün müxtəlif texnologiyalardan istifadə etməli olduğumuzdur. Bizim kukiləri idarəetmə alətimiz bizə belə bir imtina müraciətini etməyə imkan verir və cihazınızda müəyyən kuki tərcihlərini aktivləşdirir.

İlkin olaraq imtina müraciəti etdiyiniz brauzerdən fərqli brauzerdən istifadə etdiyiniz təqdirdə, istifadə etdiyiniz mobil tətbiqlərimizin hər birində və hər bir cihazda daxil olduğunuz vebsaytlarımızın hər biri üzrə tərcihlərinizi ayrıca tətbiq etməlisiniz. Brauzerdə imtina funksiyası kuki tərəfindən təyin olunduğundan kukiləri təmizlədiyiniz və ya blokladığınız halda, tərcihləriniz artıq qüvvədə olmayacaq və siz kukiləri idarəetmə aləti vasitəsilə onları bir daha aktivləşdirməli olacaqsınız.

Bu məxfilik siyasətinin sonuncu dəfə yenilənmə tarixindən əvvəl 12 aylıq müddətdə CCPA çərçivəsində "Satış" və ya "Paylaşım" kimi qəbul olunan şəxsi məlumatınızın üçüncü tərəflərlə tərəfimizdən necə paylaşıldığı barədə ətraflı məlumat almaq üçün aşağıdakı qrafikə nəzər salın. Biz yaşı 13-dən çox və 16-dan az olan yeniyetmələrin məlumatlarını onların razılığı olmadan bilərəkdən satmırıq və paylaşmırıq.

### Məxfilik üzərində Qlobal Nəzarət ("GPC")

ABŞ-ın bəzi məxfilik qanunları bizneslərdən GPC siqnallarını emal etməyi tələb edir və buna bəzi ştatlarda imtina tərcihi siqnalları, digər ştatlarda isə unversal imtina mexanizmi kimi istinad olunur. GPC şəxsin şəxsi məlumatların satışı və ya paylaşılmasından və ya Hədəflənmiş Reklamlar üçün şəxsi məlumatların emalından imtina etmək üçün şəxsin seçimini bildirən şəxslərin cihazları və ya brauzerlərində aktivləşdirdiyi plaftorma, texnologiya və ya mexanizm tərəfindən göndərilən siqnaldır. GPC-dən istifadə etmək üçün siz internt brauzeri və ya cari internet brauzerinizdə istiadə etmək üçün plaqini endirə bilər və GPC-mi aktivləşdirmk üçün addımlara əməl edə bilərsiniz. Bizim razılığın idarə edilməsi platformamız tərəfindən buradaizah edilən vebsayt və mobil tətbiqlərimizdə GPC siqnallarını qəbul edib və emal etmək üçün razılığın idarə edilməsi platformasının parametrlərini konfiqurasiya etmişik.

ABŞ-ın müəyyən məxfilik qanunları bizdən GPC siqnallarını necə emal etdiyimizi konkret olaraq GPC siqnallarını və müvafiq Satma/Paylaşma/Hədəfləmə sorğularını onlayn (yuxarıda buna “kuki Şİ” kimi istisna edirik) və oflayn (yuxarıda buna “qeyri-kuki Şİ” kimi istinad edirik) məlumatlara necə təbiq etdiyimizi təfərrüatı ilə izah etməyi tələb edir. Aşağıda GPC siqnalları tərəfindən müvafiq hallarda kuki Şİ və qeyri-kuki Şİ göndərilən Satma/Paylaşma/Hədəfləmə sorğularını tətbiq etdiyimiz ssenariləri izah edirik:

- Vebsaytımızı konkret bir internet brauzer (“brauzer 1”) üzərindən ziyarət etdikdə biz GPC siqnalını və həmin brauzer 1-də toplanılmış kuki ŞM-ə Satma/Paylaşma/Hədəfləmə sorğusunu tətbiq edəcəyik.
- Brauzer 1-ə giriş etdikdə: Biz sisin istifadəçi hesabınızla əlaqəli olan qeyri-kuki Şİ-ya GPC siqnalını və müvafiq Satma/Paylaşma/Hədəfləmə sorğusunu tətbiq edə biləcəyik, lakin bunu yalnız brauzer 1-də istifadəçi hesabınıza giriş etdikdən sonra etmək mümkündür.

Vebsaytımızı digər brauzer üzərindən ziyarət etdikdə (“brauzer 2”). Əgər sonradan vebsaytımızı brauzer 2 üzərindən ziyarət edərsinizsə (istər eyni cihazda, istərsə fərqli cihaz üzərindən olsun) və GPC aktivləşməzsə, biz brauzer 2-də istifadəçi hesabınıza daxil olana qədər brauzer 2-dəki kuki Şİ-ya brauzer 1-dən əvvəlki GPS siqnalının tətbiq edə bilməyəcəyik. Biz brauzer 1-də GPC siqnalı tərəfindən bildirilən Məlumatların Satılması/Paylaşılma/Hədəfləmə reklamlarının göndərilməsindən imtinaları tətbiq etməyə davam edəcəyik.

Biz GPC siqnallarını rəvan şəkildə emal edirik. Bu o deməkdir ki, biz: (1) GPC-ni aktviləşdirdiyiniz təqdirdə sizdən xidmət haqqı tutmuruq, (2) GPC-dən istifadə etdiyiniz təqdirdə vebsaytımızdakı təcrübənizi dəyişmirik; və ya (3) GPC-ya cavab olaraq bildiriş, peyda olan bildiriş, mətn, qrafika, animasiya, səs, video və ya istənilən reklamı nümayiş etdirmirik.

## İmtiyazlar və Loyallıq Proqramları; Ayrıseçkiliyin Aparılmasına dair Hüquq

### Loyallıq/İmtiyaz Proqramlarına dair Bildiriş

Biz ABŞ-ın bir və ya bir neçə məxfilik qanunlarına görə “maliyyə imtiyazı” və ya “həqiqi loyallıq proqramı” hesab oluna bilən Mükafat Proqramlarını idarə edib və aparmaq üçün şəxsi məlumatlarınızı toplayıb və istifadə edə bilərik (yuxarıda “Şəxsi Məlumatlarınız Tərəfimizdən Necə İstifadə Olunur” bölümündə müəyyən olunub”).

Biz “biometrik məlumat”, “peşəkar və ya məşğulluq məlumatı”, və “qeyri-ictimai səciyyə daşıyan təhsil sənədləri” istisna olmaqla bu cür Mükafat proqramlarını idarə edib və aparmaq üçün yuxarıdarkı cədvəldə açıqlanmış şəxsi məlumatların bütün kateqoriyalarından istifadə edirik. Tərəfimizdən loyallıq proqramları üçün istifadə olunan şəxsi məlumatların bütün kateqoriyaları Hədəflənmiş reklamlar üçün Satıla və ya emal oluna bilər. Biz həmçinin həssas şəxsi məlumatların və ya xüsusi kateqoriyalı məlumatların aşağıdakı kateqoriyalarını Hədəflənmiş

reklamlar üçün istifadə edə, sata və emal edə bilərik: hesab məlumatı və istifadəçi məlumatı, dəqiq geolokasiya barədə məlumat, irqi və ya etnik mənşə və sağlamlıqla bağlı şəxsi məlumatlar. Bizim bəzi Mükafat proqramları ilə bağlı həssas şəxsi məlumatları və ya xüsusi kateqoriyalı məlumatları toplamağımıza baxmayaraq, həssas şəxsi məlumatların və ya xüsusi kateqoriyalı məlumatların toplanılması və emalı Mükafat proqramlarında iştirak etmək üçün tələb olunmur. Biz şəxsi məlumatlarda sizin kimliyinizi müəyyən etmək, unikal mükafatlar təklif etmək, sizin proqram statusunu izləmək və məhsul, reklam materialları, təlim seminarları və digər məsələlər üçün proqram ballarının mübadiləsinə şərait yaratmaq üçün istifadə edirik. Şəxsi məlumatları və həssas şəxsi məlumatları və ya xüsusi kateqoriyalı məlumatları alacaq üçüncü tərəflərin kateqoriyaları yuxarıdakı cədvəldə qeyd olunub və onların bəziləri ABŞ-ın bəzi Məxfilik Qanunlarına görə məlumat brokerləri kimi müəyyən oluna bilər. ABŞ-ın bəzi məxfilik qanunlaarı bizdən bizim üçüncü tərəf tərəfdaşları vasitəsilə mükafat proqramlarını təqdim edib etməyimizi bəyan etməyi tələb edir; Bununla belə, vebsaytlarımız və ya tətbiqlərimiz vasitəsilə sizə bəzən müstəqil olaraq üçüncü tərəflərlə təmasa girmək imkanını verdiyimizə baxmayaraq üçüncü tərəflər bizim adımızdan mükafat proqramlarını təqdim etmirlər.

Müvafiq mükafatlar səhifəsində qeydiyyatdan keçməklə Mükafat Proqramına qoşula bilərsiniz. Əgər bizim Mükafat Proqramlarından hər hansı birinə qoşulsanız, Məxfilik Siyasətində qeyd edilmiş əlaqə məlumatları vasitəsilə bizimlə əlaqə saxlamaqla və ya müvafiq Mükafat Proqramının şərt və müddəalarında qeyd edilmiş təlimatlara uyğun olaraq iştirakınızı istənilən vaxt geri götürə bilərsiniz.

ABŞ-ın bəzi məxfilik qanunlarına əsasən sizin maliyyə imtiyazı proqramlarının, və ya qiymət və ya xidmət fərqlərinin o cümlədən (i) maliyyə imtiyazı və ya qiymət və ya xidmət fərqinin təklif olunması üçün əsası təşkil edən şəxsi məlumatınızın dürüst şəkildə təxmini hesablanmasına və (ii) şəxsi məlumatınızın dəyərini hesablamaq üçün istifadə etdiyimiz üsulun təsvirinə qanunvericiliyə əsasən icazə verildiyini bilmək hüququnuz ola bilər. Ümumiyyətlə, biz şəxsi məlumatlara münasibətdə pul və ya hər hansı bir başqa dəyəri vermirik. Bununla belə, əgər qanunvericiliyə əsasən Mükafatlandırma Proqramları kontekstində və ya qiymət və ya xidmət fərqlərinə görə bizdən belə bir dəyərin təyin edilməsi tələb olunarsa biz toplanılmış və istifadə olunmuş şəxsi məlumatı təqdim olunmuş güzəşt və faydanın dəyərinə bərabər şəkildə qiymətləndirmişik və dəyərin hesablanması praktik və dürüst səylər əsasında aparılaraq çox vaxt (i) toplanılmış şəxsi məlumatın kateqoriyalarını (məsələn, adlar, elektron poçt ünvanları), (ii) belə bir şəxsi məlumatın bu Məxfilik Siyasəti və bizim Mükafat proqramlarıza əsasən marketinq və biznes məqsədləri üçün istifadə edilməsini, (iii) təklif olunmuş güzəştli qiyməti (əgər varsa), (iv) Mükafat Proqramlarında qeydiyyatdan keçmiş istehlakaçıların sayını və (v) Mükafat Proqramlarının və ya qiymət və ya xidmət fərqləninin şamil olunduğu məhsul və ya xidməti nəzərdə tutur. Burada təsvir edilmiş dəyərin açıqlanması bizim özəl və ya biznes səciyyəli məxfi məlumatdan,o, cümlədən ticarət sirrlərindən imtina etmək kimi nəzərdə tutulmamalı, nə də belə şəkildə təfsir olunmamalıdır və ümimilikdə qəbul olunmuş mühasibatlıq prinsipləri və ya maliyyə mühasibatlığı standartlarına münasibəttə hər hansı bir təminatı ifadə etmir. Biz şəxsi məlumatların dəyərinin mükafaltların dəyərinə ağlabatna şəkildə aid olduğunu hesab edirik və bu Mükfat Proqramlarına abunə olmaqla siz razılığınızı bioldirirsiniz. Razılığınız verməd yiniz təqdirdən bu Mükafat Proqramlarına abunə olmayın.

Ayrıseçkiliyə yol verilməməsi

Sizin ABŞ Ştatının Məxfilik Bildirişində təsvir edilmiş məxfilik hüquqlarınızın tətbiqinə görə ayrıseçkiliyə yol verilmədən davranış hüququnuz var. Hüquqlarınızı tətbiq etmək qərarına gəldikdə biz ABŞ-ın Məxfilik qanunlarında qadağan edilmiş şəkildə sizə xidmət göstərməkdən imtina etməyəcəyik, sizdən fərqli xidmət haqqını tutmayacağıq və ya mal və ya xidmətləri fərqli keyfiyyətdə sizə təmin etməyəcəyik. Xahiş edirik nəzərə alın ki, siz şəxsi məlumatların silinməsi üçün Mükafat Proqramları sorğusunda artıq iştirak etmək imkanında olmayacqsınız. Bu ona görədir ki, bizə yuxarıda təsvir edilmiş funksiyaları icra etmək üçün Mükfat proqramlarına münasibətdə şəxsi məlumatlar tələb olunur.

## Kaliforniya istehlakçilari üzrə sorğu parametrlər

Əvvəlki təqvim ilindəki sorğu parametrlərini görmək üçünbura klikləyin.

## Digər Kaliforniya bildirişləri

### Kaliforniya ştatında yetkinlik yaşına çatmayanlar üçün bildiriş

Biz yaşı 18-dən az olan yeniyetmələrə öz məzmunlarını (məsələn, video, şərh, status yenilələməri və ya şəkillər) yükləmək imkanı verən interaktiv xidmətlər təklif edə bilərik. Bu məzmun istənilən zaman saytlarımızdakı qaydalara əsasən silinə bilər. Əgər sizin bunun necə edilməsi ilə bağlı suallarınız varsa bizimlə əlaqə saxlayın. Nəzərə alın ki, bu cür dərclər başqaları tərəfindən başqa yerə kopyalana, yönləndirilə və ya dərc edilə bilər və biz bunun üçün məsuliyyət daşımırıq. Bu hallarda siz başqa saytın sahibi ilə əlaqə saxlayaraq məzmununuzun silinməsini tələb etməlisiniz.

### Kaliforniyanın “Shine the Light” qanunu

Biz Kaliforniya sakinlərinə üçüncü tərəflərin birbaşa marketinq məqsədçəri üçün Kaliforniya ştatının “Shine the Light” qanunda müəyyən olunduğu kimi “şəxsi məlumatları” üçüncü tərəflərlə (Şirkətin filialları istisna olmaqla) paylaşmaqdan imtina etmək imkanını veririk. Kaliforniya sakinləri bu imtina hüququndan istifadə edə bilər, bizim Shine the Light qanunun tələblərinə riayət edib etməyimizlə bağlı məlimatı tələb edə bilər və/və ya məlumatları paylaşdığımız üçüncü tərəfləın və payuıaşılan məlumatların kateqoriyaları ilə bağlı açıqlamanı əldə edə bilərlər. Bunun etmək üçün bizimlə 1 Procter & Gamble Plaza, Cincinnati, OH 45202, U.S.A. (Diqqət: Məxfilik) ünvanından əlaqə saxlayın. Siz yazışmanızın mətninə “Shine the Light Sorğusu” ifadəsini daxil etməlisiniz. Sorğunuzda, xahiş edirik Kaliforniya sakini olduğunuz dair faktları gətirin və cavab üçün cari Kaliforniya ünvanınızı qeyd edin. Bu hüquq CCPA hüquqlarında fərqlidir və ayrıca tələb olunmalıdır. Bizdən hər bir istelakçı başına ildə bir dəfə soröuya cavab vermək tələb olunur. Biz təqdim edilmiş poçt ünvanından fərqli olan üsulla bizə göndərilmiş sorğuları cavablandırmaq məcburiyyətində deyilik. Biz telefon və ya faks vasitəsilə Shine the Light sorğularını qəbul etməyəcəyik və müvafiq şəkildə işarələnmiş və ya göndərilmiş və ya natamam olan sorğulara görə məsuliyyət daşımırıq.

## AİM, BK, İsveçrə və Serbiyada məxfilik

Bu bölüm AİM ölkələri, BK, İsveçrə və Serbiya sakinlərinin şəxsi məlumatlarının emalına münasibətdə açıqlanması tələb olunan məlumatlar ehtiva edir. Bu bölüm Məlumatların mühafizəsi üzrə Ümumi reqlamentin məzmunu və mahiyyətinə uyğun olaraq və 2018-ci il tarixli Məlumatların mühafizəsi üzrə Qanunla BK-nın qanunvericiliyinə daxil edilmiş və Məlumatların mühafizəsi, məxfiliyi və elektron kommunikasiyalar (Düzəlişlər və s.) üzrə Qaydalarla düzəliş edilmiş, tərəfimizdən AİM, BK, İsveçrə və Serbiya rezidentlərinin şəxsi məlumatlarının emalı, saxlanılması və ötürülməsində şəffaflığın artırılmasını təmin etmək məqsədini daşıyır (Aİ Çıxış) Qaydalar 2019. Aşağıdakı Müəssisələr və məlumat nəzarətçilərinin siyahısı kimi müəyyən məlumatlar.. Aşağıda təsvir edilmiş saxlama müddətləri yuxarıda ABŞ Ştatının məxfilik bildirişində təsvir ediliş ştatların rezidentlərinin şəxsi məluamtlarına daha geniş şəkildə şamil olunur.

Hüquqi şəxslər

Müxtəlif P&G təşkilatları sizin məlumatlarınıza nəzarət edə bilər. Məlumat idarəedicisi məlumatların emalı fəaliyyətini idarə edən qurumdur və əsasən məlumatlara görə məsuliyyət daşıyır. Aşağıdakı diaqram AİM ölkəsi, BK və Serbiya məlumatları üzrə məlumat idarəedicilərini müəyən edir. Məsələn fransız veb-saytlarının birindən elektron poçt almaq üçün qeydiyyatdan keçən zaman həmin ölkənin adının yanında qeyd olunan P&G təşkilatı həmin şəxsi məlumatlarının idarəedicisi olacaq (məsələn, Procter & Gamble France SAS).

Smart Sleep Coach tətbiqi üçün məlumatların idarəedicisi P&G Baby Care Digital LLC-dir, P&G Baby Care Digital LLCerləşdiP&G Baby Care Digital LLCi P&G Baby Care Digital LLCer One Procter & Gamble Plaza, Cincinnati, Ohio, 45202.

| Ölkələr | Məlumat Nəzarətçisi |
|---|---|
| Avstriya | Procter & Gamble Austria – Zweigniederlassung der Procter & Gamble GmbH, Wiedner Gürtel 13, 100 Wien |
| Belçika | Procter & Gamble Distribution Company (Europe) BV<br><br>P&G Səhiyyə üçün: P&G Health Belgium BV, Temselaan 100, 1853 Strombeek-Bever |
| Bolqarıstan | Procter & Gamble Bulgaria EOOD, Sofia 1404, Bd. Bulgaria nr. 69, Bulgaria |
| Xorvatiya | Procter & Gamble d.o.o. za trgovinu, Bani 110, Buzin, 10010 Zagreb, Croatia |
| Çex Respublikası | Procter & Gamble Czech Republic s.r.o., 269 01 Rakovnik, Ottova 402, Czech Republic |
| Danimarka | Procter & Gamble Danmark ApS<br>Stensmosevej 15, stuen.<br>2620 Albertslund, Denmark |
| Estoniya | Procter & Gamble International Operations SA, Route de Saint-Georges 47 1213 PETIT-LANCY, Geneve |
| Finlandiya | Procter & Gamble Finland Oy,<br>Lars Sonckin Kaari 10, 02600 ESPOO, Finland |
| Fransa | Procter & Gamble France SAS<br>For P&G HealthCare:<br>P&G Health France SAS<br>163/165 quai Aulagnier, 92600 Asnières-sur-Seine |
| Almaniya | Procter & Gamble Service GmbH, Sulzbacher Strasse 40, 65824 Schwalbach am Taunus<br>For P&G Health: P&G Health Germany GmbH, Sulzbacher Strasse 40, 65824 Schwalbach am Taunus |
| Yunanıstan | P&G Hellas Ltd. 49 Ag. Konstantinou str., 15124 Maroussi – Athens, Greece |
| Macarıstan | 1097 Budapest, Könyves Kálmán krt. 34., Hungary |
| İrlandiya | Procter & Gamble UK, The Heights, Brooklands, Weybridge, Surrey KT13 0XP |
| İtaliya | Procter & Gamble Srl, viale Giorgio Ribotta 11, 00144 Roma |
| Latviya | Procter & Gamble International Operations SA, Route de Saint-Georges 47 1213 PETIT-LANCY, Geneve |
| Litva | Procter & Gamble International Operations SA, Route de Saint-Georges 47 1213 PETIT-LANCY, Geneve |
| Niderland | Procter & Gamble Nederland B.V., Watermanweg 100,<br>3067-GG Rotterdam<br>New address as of April 27, 2020: Weena 505, 3013 AL Rotterdam |
| Norveç | Procter & Gamble Norge AS<br>Ziyarət ünvanı: Nydalsveien 28, 0484 Oslo<br>Poçt ünvanı: Postboks 4814, 0422 Oslo |
| Polşa | Procter and Gamble DS Polska sp z o.o., ul. Zabraniecka 20, 03-872 Warszawa, Poland |
| Portuqaliya | Procter & Gamble Portugal, Productos de Consumo Higiene de Saúde, S.A., S.A. Edificio Alvares Cabral 3°, Quinta da Fonte, 2774-527 Paço D'Arcos, Portugal |
| Rumıniya | Müsabiqələr üçün: Procter & Gamble Distribution SRL, 9-9A Dimitrie Pompei Blvd., Building 2A, District 2, Bucharest 020335, Romania |

| | |
|---|---|
| | Digər məkanlar üçün: Procter & Gamble Marketing Romania SR, 9-9A Dimitrie Pompei Blvd., Building 2A, District 2, Bucharest 020335, Romania |
| Serbiya | Procter & Gamble Doo Beograd, Španskih boraca 3, 11070 Novi Beograd, Belgrade, Serbia |
| Slovakiya | Procter & Gamble, spol. s.r.o., Einsteinova 24, 851 01 Bratislava, Slovakia |
| İspaniya | Procter & Gamble España, S.A.U., Avenida de Bruselas, 24, 28108 Alcobendas, Madrid, Spain |
| İsveç | Procter & Gamble Sverige AB<br>Ziyarət ünvanı: Telegrafgatan 4, 169 72 Solna, Sweden<br>Poçt ünvanı: Box 27303, 102 54 Stokholm |
| Birləşmiş Krallıq | Procter & Gamble UK<br>Seven Seas Limited, The Heights, Brooklands, Weybridge, Surrey KT13 0XP |

## Kolumbiyada məxfilik

**Procter & Gamble Colombia Ltda**., NIT: 800.000.946-4, ünvan: Carrera 7 # 114-33, 12th floor, Bogotá D.C., telefon nömrəsi: 601-5280000 və e-poçt ünvanı: notifications.im@pg.com, Məlumat Nəzarətçisi kimi fəaliyyət göstərərək və Kolombiya Konstitusiyasının 15 və 20-ci maddələrinə, 2012-ci il tarixli, 1581 saylı Qanuna, 2008-ci il tarixli, 1266 saylı Qanuna, 2013-cü il tarixli, 1377 saylı Fərmana və 2015-ci il tarixli, 1074 saylı Fərmana əsasən bütün məlumat subyektlərinə bildirir ki, təqdim olunan şəxsi məlumatlar bu Məxfilik Siyasətində https://privacypolicy.pg.com/es-co/ təsvir edilmiş məqsədlərə uyğun olaraq emal ediləcək.

## Kolumbiyada yaşayan şəxsi məlumat sahibinin hüquqları

Kolumbiya Konstitusiyasının 15 və 20-ci maddələrinə, 2012-ci il tarixli, 1581 saylı Qanuna, 2008-ci il tarixli, 1266 saylı Qanuna, 2013-cü il tarixli, 1377 saylı Fərmana və 2015-ci il tarixli, 1074 saylı Fərmana əsasən təqdim olunan şəxsi məlumatların bu məxfilik siyasətində təsvir edilmiş məqsədlərə uyğun olaraq emal ediləcəyi barədə məlumat subyektlərinə məlumat verilir. Eyni şəkildə, məlumat subyektlərinin aşağıdakı hüquqlarının olduğu bildirilir: a) qismən, qeyri-dəqiq, natamam, fraksiyalı, çaşdırıcı və ya emalı açıq şəkildə qadağan edilmiş və ya icazə verilməyən məlumatlarla bağlı şəxsi məlumatlarını bilmək, yeniləmək və düzəltmək; b) emal tələbi kimi açıq şəkildə azad edilmədiyi müddətcə, verilmiş icazənin sübutunu tələb etmək; c) öz şəxsi məlumatlarından istifadə haqqında sorğu əsasında məlumat almaq; d) 2012-ci il tarixli, 1581 saylı Qanunun və onu dəyişdirən, əlavələr edən və ya tamamlayan digər qaydaların pozulması ilə bağlı Sənaye və Ticarət Rəhbərliyinə şikayət vermək; e) emalı konstitusiya və hüquqi prinsiplərə, hüquqlara və təminatlara uyğun gəlmədikdə icazəni ləğv etmək və/və ya məlumatların silinməsini tələb etmək. Ləğvetmə və/və ya silinmə, Sənaye və ticarət rəhbərliyi məlumat nəzarətçisi və ya emalçısinin bu qanuna və Konstitusiyaya zidd hərəkətlər etdiyini müəyyən etdikdə davam edəcək; f) emal edilməli olan şəxsi məlumatlarına pulsuz daxil olmaq. Yuxarıda qeyd olunan hüquqlar bu bölmədə və aşağıdakı keçiddən əldə edilə bilən məxfilik siyasətində qeyd olunan müddəalara uyğun olaraq həyata keçirilə bilər: https://privacypolicy.pg.com/es-co/.

## Şəxsi məlumatların toplanmasının icazəsi və forması

Şəxsi məlumatların emalı üçün Procter & Gamble Colombia Ltda. məlumat subyektinin əvvəlcədən, açıq və məlumatlı razılığını alacaq. Bu razılıq sonradan məsləhətləşdirilə bilən istənilən vasitə ilə əldə edilə bilər və Procter & Gamble Colombia Ltda. tərəfindən təmin edilən müxtəlif mexanizmlər vasitəsilə, yazılı, şifahi və ya məlumat subyektinin birmənalı davranışı ilə verilə bilər.

Aşağıdakılarla əlaqədar məlumat subyektinin razılığı tələb olunmayacaq:

- Dövlət və ya inzibati qurumun öz hüquqi funksiyalarını yerinə yetirərkən və ya məhkəmə qərarı ilə tələb etdiyi məlumatlar.
- İctimai xarakterli məlumatlar.
- Tibbi və ya sanitar fövqəladə vəziyyətlər.
- Tarixi, statistik və ya elmi məqsədlər üçün qanunla icazə verilən məlumatların emalı.
- Fiziki şəxslərin mülki reyestrinə aid məlumatlar.

### Şəxsi məlumatların emalı

**Procter & Gamble Colombia Ltda.** insanların həyatına təsir etmək və yaxşılaşdırmaq, onların istehlakçılar və fiziki şəxslər kimi maraq və üstünlüklərini daha yaxşı başa düşmək məqsədini həyata keçirmək üçün şəxsi məlumatlardan istifadə edir. Biz məlumatlarınızdan bu keçiddən (https://privacypolicy.pg.com/es-co/) əldə edə biləcəyiniz məxfilik siyasətində nəzərdə tutulmuş emal məqsədləri və aşağıdakı məqsədlər üçün istifadə edirik:

- Müştərilərə şəxsi ziyarətlər, marketinq, fiziki və elektron vasitələrlə məlumat göndərmək kimi müxtəlif vasitələrlə marketinq, tanıtım və/və ya reklam fəaliyyətlərinin həyata keçirilməsi.
- Müştərilərə təkliflər, reklamlar, endirimlər, təqdimatlar əldə etməyə imkan verən məlumatların təqdim edilməsi və maraq doğuran məlumatların (fərdiləşdirilmiş diqqət, faydalar, istifadə, sağlamlıq və rifah və s.) təmin edilməsi.
- Müştərilər, təchizatçılar və işçilərlə bağlanmış öhdəliklərin yerinə yetirilməsi.
- Məhsullarımızda və/və ya xidmətlərimizdə dəyişikliklər haqqında məlumat verilməsi.
- Məhsulların və/və ya xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi və müştəri məmnuniyyətinin ölçülməsi.
- Siyasətlərin, proqramların, nəticələrin və təşkilati dəyişikliklərin yayılması.
- Kommersiya və ya marketinq strategiyalarının hazırlanması və həyata keçirilməsi, həmçinin proqramların, layihələrin və tərtib edilməsi, həyata keçirilməsi və hazırlanması üçün məlumatların təhlili.
- İcazə verilmiş məqsədlərlə əlaqədar fəaliyyətlər üçün məlumat subyekti ilə zənglər, mətn mesajları, e-poçtlar və/və ya fiziki vasitələrlə əlaqə saxlanması.
- Elektron hesab-fakturaların tərtib edilməsi.
- Müqavilə, qanun və ya hüquqi münasibətlər səbəbindən və ya bulud hesablama xidmətlərini həyata keçirmək üçün eyni məhdudiyyət və hüquqlarla şəxsi məlumatların ölkə daxilində və xaricdə Procter & Gamble Colombia Ltda. şirkətinin ana şirkətlərinə, törəmə şirkətlərinə, filiallarına və ya üçüncü tərəflərə açıqlanması, köçürülməsi və/və ya ötürülməsi.

- Procter & Gamble Colombia Ltda. şirkətinin texniki iddialar və s. ilə bağlı xəbərdar olduğu mənfi hallarla əlaqədar və ya şübhəsi ilə qanuni mandat və ya məhkəmə, yaxud inzibati qərar əsasında həssas şəxsi məlumatların səlahiyyətli dövlət qurumlarına köçürülməsi və/və ya ötürülməsi.
- Procter & Gamble Colombia Ltda. şirkətinin ən münasib hesab etdiyi formatda bir və ya bir neçə məlumat bazasında təqdim olunan bütün məlumatları bilmək, saxlamaq və emal etmək.
- Prosedurların (sorğular, şikayətlər, iddialar) idarə edilməsi.
- Təklif olunan məhsulların istifadəsi və baxımı ilə bağlı məlumatların birbaşa və ya məlumat emalçısı vasitəsilə göndərilməsi.
- P&G-nin fəaliyyəti və/və ya məhsulları ilə bağlı sorğulara, şikayətlərə və ya iddialara (PQR) diqqət edilməsi.

### Şəxsi məlumatların beynəlxalq qaydada ötürülməsi və emalı

Procter & Gamble Colombia Ltda. müqavilə, qanun və ya bunu tələb edən hüquqi əlaqə nəticəsində şəxsi məlumatların digər ana şirkətlərə, filiallara və ya törəmə şirkətlərə, yaxud məlumatları saxlaya, emal edə və ya əldə edə bilən xidmət təminatçılarına Beynəlxalq Qaydada Ötürülməsini həyata keçirir. Bu prosesi həyata keçirmək üçün Procter & Gamble Colombia Ltda. 2012-ci il tarixli 1581 saylı Qanunun 26-cı maddəsinin və Sənaye və Ticarət Nəzarətinin Yeganə Sirkulyarının V Başlığının Üçüncü Fəslinin 3.2-ci bölməsinin müddəalarına uyğun olaraq şəxsi məlumatların adekvat səviyyədə qorunmasına zəmanət verən standartlara cavab verən ölkələrə şəxsi məlumatların ötürülməsi və ya transmissiyasının həyata keçiriləcəyini təsdiq etmişdir.

Bundan əlavə, Procter & Gamble Colombia Ltda. Procter & Gamble Colombia Ltda. şirkətinin bütün daxili proseslərini idarə etmək üçün serverləri Kolumbiya ərazisindən başqa bir ölkədə yerləşən müxtəlif idarəetmə proqramları vasitəsilə də şəxsi məlumatların ötürülməsini həyata keçirə bilər. İstənilən halda, Sahibindən açıq və birmənalı icazəyə sahib olmaqla yanaşı, Procter & Gamble Colombia Ltda. fəaliyyətin məlumatların adekvat səviyyədə qorunmasını təmin etməsini və Kolumbiyada Habeas Məlumat Rejimi tərəfindən müəyyən edilmiş tələblərə cavab verməsini təmin edəcək.

### Uşaq və yeniyetmələrin şəxsi məlumatları

Procter & Gamble Colombia Ltda. yetkinlik yaşına çatmayanların maraqlarına və Kolumbiyanın Siyasi Konstitusiyasının 44-cü maddəsində təsbit olunmuş uşaq və yeniyetmələrin qəbul edilmiş hüquqlarına həmişə hörmət edərək xüsusi fəaliyyətlər üçün uşaq və yeniyetmələrdən ictimai məlumatlar toplaya bilər. Bu məqsədlə Procter & Gamble Colombia Ltda. yetkinlik yaşına çatmayanların qəyyumunun və ya valideynlərinin əvvəlcədən icazəsini alacaq.

İstənilən halda, uşaq və yeniyetmələrdən toplanan şəxsi məlumatlar hədəf reklamlar üçün istifadə edilməyəcək.

### Sorğulara, şikayətlərə, icazənin ləğvinə, məlumat bazalarının yenilənməsinə, geri alınmasına, düzəldilməsinə və ya silinməsinə (ümumilikdə "PQRS" kimi bilinir) diqqət.

Məlumat subyekti, onun varisləri, nümayəndələri və ya başqasının lehinə olması şərti ilə müəyyən edilmiş hər kəs (ümumilikdə "Maraqlı tərəf" kimi bilinir) müştəri xidməti şöbəsinə yazılı mesaj

göndərərək bizimlə əlaqə saxlamaqla öz hüquqlarından istifadə edə bilər.

Mesaj aşağıdakı kanallardan biri ilə göndərilə bilər:

- E-poçt: e-poçt göndərmək üçün BURAYA klikləyin
- Telefon: 01-800-917-0036
- Yazılı mesaj Carrera 7 # 114-33, 12th floor, Bogotá D.C. ünvanına göndərilməlidir.
- Tərcihlər Mərkəzi BURAYA klikləyin

## İstəklərin, sorğuların, şikayətlərin icrası, icazənin ləğvi, məlumat bazalarının yenilənməsi, geri alınması, düzəldilməsi və ya silinməsi proseduru

### Məlumat subyektinin şəxsiyyətinin və istənilən sorğunun məzmununun yoxlanılması

Məlumat subyektinin məxfiliyini və təhlükəsizliyini qorumaq üçün sorğuya cavab verməzdən əvvəl onun şəxsiyyətini yoxlamaq üçün addımlar atırıq. Buna görə də, sorğunuzu həll etmək üçün sizdən Məlumat subyektinin identifikasiya məlumatlarını təqdim etməyinizi xahiş edirik:

- Ad, soyad.
- İdentifikasiya nömrəsi.
- Əlaqə məlumatları (fiziki və/və ya elektron ünvan və əlaqə üçün telefon nömrələri).
- Doğum tarixi.

Sorğu Tərcihlər mərkəzimiz vasitəsilə təqdim edildiyi halda, sorğunuzu aldıqdan sonra e-poçt vasitəsilə sizə doğrulama forması göndərəcəyik. Sorğunu tamamlamaq üçün Məlumat subyekti aldıqdan sonra yoxlama formasına cavab verməlidir.

Eyni qaydada, Məlumat subyekti olmayan hər hansı digər Maraqlı Tərəf də öz şəxsiyyətini və başqasının lehinə və ya adından maraq, nümayəndə və ya təmsilçilik və ya şərt üzrə varisi kimi statusunu sübut etməlidir.

Yuxarıda qeyd olunan kimlik yoxlaması ilə bağlı əlavə istinad üçün aşağıdakı keçiddə yerləşən məxfilik siyasətinə istinad edin: https://privacypolicy.pg.com/es-co/

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Şəxsi məlumatların emalı ilə bağlı sorğular ən azı aşağıdakıları ehtiva etməlidir:

- Məlumat subyektinin identifikasiya məlumatları (tam adı, identifikasiya nömrəsi, əlaqə məlumatları və doğum tarixi).
- Əgər varsa, Maraqlı tərəfin şəxsiyyəti və statusunun akkreditasiyası (identifikasiya məlumatları və onun Maraqlı tərəf kimi şəxsiyyət və statusunu təsdiq edən sənədlər).
- Sorğuya cavab almaq üçün vasitələr.
- Sorğuya əsas verən səbəblər və faktlar.
- Çağırılması nəzərdə tutulan sənədlər.

- Məlumat subyektinin şikayət etmək, şəxsi məlumatlarının düzəldilməsini, yenilənməsini və ya silinməsini tələb etmək hüququndan istifadə etmək istədiyi şəxsi məlumatların aydın və dəqiq təsviri (sorğuların verilməsinə aid edilmir).

### Sorğu proseduru

Maraqlı tərəf bilmək istəyi məlumatı göstərməklə sorğu verə bilər və istənilən halda sorğular alındığı tarixdən etibarən ən geci 10 (on) iş günü ərzində cavablandırılacaq. Sözügedən müddət ərzində sorğunu cavablandırmaq mümkün olmadıqda, Maraqlı Tərəf 10 (on) iş günü bitməzdən əvvəl gecikmənin səbəbləri və sorğunun baxılacağı tarix barədə məlumatlandırılacaq, bu da heç bir halda ilkin müddətin bitməsindən sonra 5 (beş) iş günündən çox ola bilməz.

### Şikayətlər, razılığın ləğvi, geri alınması, şəxsi məlumatların düzəldilməsi, yenilənməsi və ya silinməsi proseduru

Məlumat subyekti emal edilən məlumatın düzəldilməsi, yenilənməsi və ya silinməsi lazım olduğunu düşündükdə və ya Qanunda əks olunmuş vəzifələrin hər hansı birinin iddia edilən pozulmasından xəbərdar olduqda, Məlumat subyekti və ya digər Maraqlı tərəf şəxsi məlumatlarının düzəldilməsi, yenilənməsi və ya silinməsi üçün şikayət, sorğu verə bilər.

Əgər şikayət natamamdırsa, Maraqlı tərəfə şikayətin alınmasından sonra çatışmazlıqları aradan qaldırmaq üçün 5 (beş) gün müddət veriləcək. Sorğunun verildiyi tarixdən etibarən 2 (iki) ay ərzində ərizəçi tələb olunan məlumatları təqdim etməzsə, onun şikayəti geri götürdüyü başa düşüləcək.

Procter & Gamble Colombia Ltda. həll etmək səlahiyyətinə malik olmadığı şikayəti qəbul edərsə, onu ən geci 2 (iki) iş günü ərzində müvafiq orqana göndərəcək və Məlumat subyektinə məlumat verəcək.

Şikayətə baxılması üçün maksimum müddət onun daxil olduğu tarixdən sonrakı gündən etibarən 15 (on beş) iş günüdür. Sözügedən müddət ərzində şikayəti cavablandırmaq mümkün olmadıqda, maraqlı tərəf gecikmənin səbəbləri və şikayətin baxılacağı tarix barədə məlumatlandırılacaq, bu da heç bir halda ilkin müddətin bitməsindən sonra 8 (səkkiz) iş günündən çox ola bilməz.

## Siyasətlərin dəyişdirilməsi

Procter & Gamble Colombia Ltda. bu Şəxsi Məlumatların Emalı və Qorunması Siyasətini istənilən vaxt dəyişdirmək hüququnu özündə saxlayır. Bununla belə, hər hansı dəyişiklik effektiv vasitələrlə və həyata keçirilməzdən əvvəl şəxsi məlumatların sahiblərinə bildiriləcək.

Şəxsi Məlumat Sahibinin Məlumatların Emalı Siyasətinə edilən dəyişikliklə razılaşmadığı halda, Sahib Procter & Gamble Colombia Ltda. şirkətindən şəxsi məlumatlarının geri götürülməsini və ya silinməsini tələb edə bilər.

## Etibarlılıq

Bu siyasət 14 fevral 2024-cü il tarixindən etibarən qüvvədədir və 10 mart 2025-ci il tarixində yenilənmişdir. Hər hansı yeniləmələr təsdiq edildikdən sonra lazımi qaydada Məlumat subyektlərinə çatdırılacaq.

Şəxsi məlumatların qeydiyyata alınacağı məlumat bazaları siz şəxsi məlumatların silinməsini tələb edənə və ya razılığınızı geri götürənə qədər etibarlı qalacaq. Əks təqdirdə, biz bu bölmədə təsvir edilən emal məqsədi üçün artıq lazım olmayanda və ya maksimum 50 aylıq fəaliyyətsizlik dövründən sonra

şəxsi məlumatlarınızı siləcəyik. İstisna hal qanunvericilik və ya müqavilə əsasında məlumatların daha uzun müddət ərzindən saxlanılmasının tələb olunmasıdır.

Biz fəaliyyətsizliyi istifadəçinin bizim proqram və kommunikasiyalarla qarşılıqlı əlaqəsinin olmadığını göstərən müxtəlif daxili meyarlarla müəyyən edirik. Məsələn, giriş etməsəniz və ya e-məktublarımızı açmasanız yaxud klikləməsəniz, sizi "fəaliyyətsiz" hesab edəcəyik və maksimum 50 aylıq müddətdən sonra məlumatlarınızı siləcəyik. Yerli qanunvericilik tələblərindən asılı olaraq müəyyən ölkələrdə bu müddət daha az ola bilər. Sorğularınızı icra etmək, eləcə də sizi marketinq e-poçtları abunəliyindən kənarda saxlamağa davam etmək və ya digər hüquqi öhdəliklərə əməl etmək üçün bəzi şəxsi məlumatlarınızı saxlaya bilərik. Biz həmçinin müəyyən şəxsi məlumatları reytinq və rəylərdə rəyin istifadə olunanandək və ya məhsulun istifadəso dayandırılanadək saxlaya bilərik.

## Malayziyada Məlumat Mühafizəsi

Bu bildiriş yuxarıda göstərilən Qlobal Məlumat Mühafizəsi Siyasətini (bundan sonra "Məlumat Mühafizəsi Siyasəti" adlanır) tamamlayır.

**Məlumatların Mühafizəsi üzrə Mütəxəssis**

Əgər sizdə öz məxfiliyiniz və bizim məlumatların mühafizəsi praktikalarımızla bağlı hər hansı sual və ya narahatlıq varsa, aşağıdakı kanallar vasitəsilə Məlumatların Mühafizəsi üzrə Mütəxəssislə əlaqə saxlaya bilərsiniz:

E-poçt: MYDataprivacy@shared.pg.com

Telefon: 03 7724 3200

Yazılı ünsiyyət aşağıdakı ünvana göndərilə bilər: Procter & Gamble (Malayziya) Sdn Bhd, 10-cu mərtəbə, Surian Tower, No. 1, Jalan PJU 7/3, Mutiara Damansara, 47810 Petaling Jaya, Selangor.

## Nigeriya məxfilik

**Potensial məlumat sızması ilə bağlı P&G-yə məlumatın verilməsi**

**Şəxsi məlumatların sızması** ötürülmüş, saxlanılmış və ya digər şəkildə emal olunmuş şəxsi məlumatların təsadüfi, qeyri-qanuni məhvinə, itkisinə, səlahiyyətsiz şəkildə açqılanmasına və ya çıxışına aparan təhlükəsizlik sisteminin pozuntusudur.

Təsdiqlənmiş və ya ehtimal olunan məlumat sızmaları barədə məlumat vaxtında P&G's Məlumatların Mühafizəsi üzrə Məsul Şəxsə verilməlidir. Bütün məlumat sızmaları idaraetmə və hesabatvemrə məqsədləri üçün təsdiqlənmiş insidentlərin növləri və tezliyini müvafiq şəkildə izlənməsini təmin etmək üçün Məlumatların Mühafizəsi üzrə Məsul Şəxs tərəfindən qeydə alınacaqdır.

Şəxsi məlumatlarının necə sızması haqqında şikayətini bildirmək istəyən şəxs şikayətini birbaşa Məlumatların Mühafizəsi üzrə Məsul Şəxsə e-poçtla göndərə bilər: nigeriadpo.im@pg.com.

Şikayətə aşağıdakılar daxil olmalıdır:

- məlumat sızmasına gətirib çıxaran təhlükəsizlik insidentinin təfərrüatlı təsviri;

- məlumat sızması nəticəsində təsir altına düşmüş şəxsi məlumatların növü;
- təsir altına düşmüş şəxsin kimliyi;
- Məlumatların Mühafizəsi üzrə Məsul Şəxs tərəfindən tələb oluna bilən istənilən digər məlumat.

İstənilən belə şikayətlər ethimal olunan və ya təsdiqlən məlumat sızması hadisəsi baş verəndən sonra 72 (yetmiş iki) saat daxilində bildirilməlidir.

**Məlumat sızmasının səlahiyyətli orqanlara bildirilməsi**

P&G şirkəti potensial məlumat sızması barədə məlumatı belə sızmaların baş verməsindən sorna 72 saat içində şəxi məlumatların mühafizəsi üzərində nəzarətə görə məsuliyttə daşıyan aidiyyatı orqanlara məlumat verəcək.

### Vyetnamda məxfilik

Məlumat subyekti olaraq, Vyetnam qaydaları ilə təmin edilmiş məlumatlarınızla bağlı aşağıdakı hüquqlara sahibsiniz: məlumat almaq, razılıq vermək və geri götürmək, şəxsi məlumatlara daxil olmaq, silmək, düzəltmək/düzəliş etmək, şəxsi məlumatların emalını məhdudlaşdırmaq, reklam üçün şəxsi məlumatlarınızdan istifadəmizə etiraz etmək, hüquqlarınızı qorumaq üçün özünümüdafiə etmək və ya digər səlahiyyətli təşkilatlara müraciət etmək. Şəxsi məlumatların emalına razılıq verərkən siz tam və dəqiq şəxsi məlumatlar, eləcə də müvafiq məlumatların məxfiliyi qanunlarına uyğun olaraq digər öhdəliklər təqdim etməlisiniz.

Topladığımız şəxsi məlumatların bəziləri müvafiq qanunlara əsasən həssas şəxsi məlumatlar hesab olunur, bunlara aşağıdakılar daxil ola bilər: irqi və etnik mənsubiyyət, fiziki şəxsin məkan xidmətləri vasitəsilə müəyyən edilmiş məkan məlumatları; IP ünvanı, Sağlamlıqla bağlı məlumatlar, Bank hesabı məlumatları və Biometrik məlumatlar kimi fiziki yerinizi birbaşa və ya dolayısı ilə göstərə bilən digər məlumatlar.

Nəzərə alın ki, Legitim maraq Vyetnamda şəxsi məlumatların emalı üçün yeganə qanuni tələb deyil və qanunlarla nəzərdə tutulmuş digər istisnalar tətbiq olunmadığı müddətcə, şəxsi məlumatların emal edilməsinə razılığınızı alacağıq.

Mövcud qanunlarla başqa cür nəzərdə tutulmadığı müddətcə, biz 16 yaşına çatmamış uşaqların şəxsi məlumatlarını yalnız yeddi və ya daha böyük yaşda olan uşaqların və onların valideynlərinin/qanuni qəyyumlarının razılığını aldıqdan sonra toplayıb emal edirik.

Məlumatların pozulması halında biz tətbiq olunan qanunlara əsasən bütün hesabat və düzəliş öhdəliklərinə əməl edəcəyik.

---

## Bizimlə əlaqə

–

### Hələ də sualınız var? Biz sizə kömək etməyə hazırıq.

Məxfiliyiniz və ya məlumatın qorunması üzrə təcrübəmizlə bağlı hər hansı sual və ya narahatçılığınız olarsa və ya əlil istehlakçı olaraq bu bildirişin surətini alternativ formatda əldə etmək istəsəniz, birbaşa bizimlə əlaqə saxlayın. Məlumat sızması ilə bağlı şübhələr kimi, məlumatın qorunması üzrə mütəxəssisimiz üçün nəzərdə tutulmuş sorğunuz olduğu halda, zəhmət olmasa, bizimlə buradan əlaqə saxlayın və bunu

mesajınızda bildirin. Siz həmçinin, Məlumatın qorunmasi üzrə mütəxəssisimizin (Data Protection Officer) aşağıdakı ünvanına yaza bilərsiniz: 1 Procter & Gamble Plaza, Cincinnati, OH 45202, U.S.A.

Məlumatların mühafizəsi üzrə ümumi reqlamentin 27-ci maddəsi üzrə nümayəndə:

Məlumatların Mühafizəsi üzrə Ümumi Reqlamentin 27-ci Maddəsi üzrə nümayəndəmizin BK və Aİ-da əlaqə məlumatı aşağlıdakı kimidir: Procter & Gamble Ireland, The Graan House, Units E1 and E14, Calmount Business Park, Dublin 12, Irlandiya

---



© 2025 Procter & Gamble